# Aİ-dən Putinə sərt mesaj

“Rusiya qalib gələ bilməyəcəyini anlayana qədər təzyiqi artıracağıq”



**Avropa İttifaqı Rusiyanın Kiyevə həyata keçirdiyi son genişmiqyaslı hücumdan sonra Moskvaya qarşı yeni sanksiyalar hazırladığını açıqlayıb.**

Aİ-nin xarici siyasət rəhbəri Kaja Kallas bildirib ki, Rusiyanın hərbi-sənaye kompleksini dəstəkləyən əlavə qurumların sanksiya siyahısına daxil edilməsi təklif olunacaq.

Onun sözlərinə görə, Ukraynaya hərbi dəstək və Rusiyaya təzyiq davam etdiriləcək: ”Rusiya qalib gələ bilməyəcəyini anlayana qədər təzyiqi artırmağa davam edəcəyik”.

Ukrayna tərəfi Rusiyanın son hücum zamanı ölkəyə 74 raket və 496 pilotsuz uçuş aparatı ilə zərbələr endirdiyini açıqlayıb. Aİ isə Ukraynanın müdafiəsini gücləndirmək məqsədilə ayrılmış 90 milyard avroluq maliyyə paketi çərçivəsində Kiyevə daha 6 milyard avro vəsait köçürüldüyünü bildirib.

№ 24 (6505) 2026-cı il

Qiymәti 50 qәpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 3 - 10 iyul 2026-cı il (cümə)




**Venesuelada iyunun 24-də baş verən güclü zəlzələlərdən sonra dağılan ticarət mərkəzinin altında qalan 44 yaşlı Hernan Alberto Gil Flores 8-ci gündə sağ xilas edilib.**

”Şərq” xəbər verir ki, La Quayra bölgəsində aparılan axtarış-xilasetmə əməliyyatı zamanı Çili yanğınsöndürənləri Floreslə dağıntılar altında əlaqə yaradıb və ona su, qida və dərman çatdırıblar. Nəhayət, o, təxminən 9 metr dərinlikdən çıxarılıb.

Floresin həyat yoldaşı Usbimar Qonzales onun sağ olduğunu öyrənəndə böyük ümid hiss etdiyini bildirib: ”O, əsl qəhrəman kimi dözdü”.

Mütəxəssislər qeyd edirlər ki, zəlzələdən 7-8 gün sonra dağıntılar altından sağ insanların tapılması olduqca nadir və qeyri-adi hadisə hesab olunur. Bu səbəbdən Floresin xilas edilməsi ”möcüzəvi qurtuluş” kimi qiymətləndirilir.

(səh.3)



## Azərbaycanda "kağızsız hökumət" modeli qurulur

Mehriban xanım strateji hədəfləri daha konkret prinsiplərlə müəyyənləşdirdi

**Bu gün bəşəriyyət rəqəmsal sürətin və texnoloji innovasiyaların idarə etdiyi yeni epoxanın astanasındadır. Azərbaycan da digər ölkələr kimi bütün sahələrdə rəqəmsallaşmanın inteqrasiyasını sürətləndirməyi hədəfləyib.**

(səh.3)

# Aİ Azərbaycanın regional liderliyini rəsmən qəbul etdi

## Ursula fon der Lyayenin səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərində dönüş nöqtəsidir



**Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri və Prezident İlham Əliyevlə keçirdiyi görüşlər Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni mərhələnin başlandığı ilə bağlı qiymətləndirmələri gücləndirib.**

Bundan əvvəl Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Bakıya səfərindən sonra Aİ-nin daha bir ali rəhbərinin Bakıya gəlməsi Brüsselin Azərbaycana artan strateji marağının göstəricisi kimi dəyərləndirilir. Səfər zamanı Azərbaycanın strateji tərəfdaş kimi təqdim olunması, regional sülh, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərində rolunun xüsusi vurğulanması diqqət çəkən məqamlardan olub.

**Millət vəkili Tural Gəncəliyev “Şərq”ə səfərin siyasi və iqtisadi əhəmiyyətindən danışıb:** “Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri və Prezident İlham Əliyevlə keçirdiyi görüşlər, verdiyi mesajlar Azərbaycan-Avropa İttifaqı münasibətlərində dönüş nöqtəsi kimi qiymətləndirilməlidir.

Səfər zamanı verilən siyasi mesajlar və əldə olunan razılaşmalar göstərir ki, tərəflər arasında əməkdaşlıq artıq yeni strateji mərhələyə qədəm qoyur.

(səh.2)




## Çap mediasına dövlət dəstəyi

Müsabiqənin nəticələri məlum oldu

**Çap mediası subyektlərinə dəstək müsabiqəsinin nəticələri açıqlanıb.**

“Şərq” xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi məlumat yayıb.

Məlumata görə, MEDİA tərəfindən çap mediası subyektlərinin inkişafı, iqtisadi müstəqilliyinin gücləndirilməsi, fəaliyyətinin təkmilləşdirilməsi, habelə dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən layihələrin həyata keçirilməsi məqsədilə təşkil edilən müsabiqənin nəticələri açıqlanıb.

## Nazir və müavinləri kənddən, təsərrüfatdan xəbərsizdirlər

“Kombaynda şəkil çəkdirməklə kənd təsərrüfatı inkişaf etmir”



**Son zamanlar satıcı və istehlakçıların sosial mediada yeşik-yeşik meyvələri zibilliyə tulladığının şahidi oluruq. Xüsusilə də, Xaçmazın Pirquluoba kəndində gilasların çölə tökülməsini əks etdirən görüntülər cəmiyyətin etirazına tuş gəlib.**

Səbəb kimi bazarda alıcının olmaması göstərilir. Paytaxtdakı bazar və marketlərdə isə 4-5 manatdan ucuz gilas tapmaq, samanlıqda iynə axtarmağa çevrilib. Sezonla əlaqədar əhalinin mürəbbə bişirdiyini də nəzərə alsaq, zibilə tullanan meyvələrin narazılıqla qarşılanması qaçılmazdır.

(səh.5)

# Saxta nikahla ölkədə qalmaq istəyənləri deportasiya gözləyir

## Dövlət Miqrasiya Xidmətinin aidiyyəti strukturları bu cür halları kifayət qədər rahat şəkildə aşkarlayır




**Bir sıra ölkələrdə əcnəbilərlə bağlanan nikah əsasında müvəqqəti yaşama icazəsinin alınması qanunvericilikdə nəzərdə tutulan hüquqi əsaslardan biridir. Lakin son illərdə bu mexanizmdən sui-istifadə hallarının artması bir çox dövlətləri qanunvericiliyi sərtləşdirməyə və nəzarət mexanizmlərini gücləndirməyə sövq edib.**

Bu gündən etibarən Gürcüstanda xarici ölkə vətəndaşları ilə bağlı qanun düzəlişləri qüvvəyə minib.

(səh.6)



## Nəriman Həsənzadənin vəziyyəti ağır stabil olaraq qalır

**Xalq şairi Nəriman Həsənzadənin vəziyyəti ağır stabil olaraq qalır.**

Bu barədə Teleqraf-ın sorğusuna cavab olaraq Mərkəzi Klinik Xəstəxanadan məlumat verilib.

”Xəstənin vəziyyəti ağır stabil olaraq qalır. Kompleks müalicəsi davam etdirilir”,- deyə məlumatda qeyd edilib.

Qeyd edək ki, Nəriman Həsənzadə xroniki orqan çatışmazlığı diaqnozu ilə Mərkəzi Klinikaya yerləşdirilib.



# Aİ Azərbaycanın regional liderliyini rəsmən qəbul etdi

## Ursula fon der Lyayenin səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərində dönüş nöqtəsidir

**Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri və Prezident İlham Əliyevlə keçirdiyi görüşlər Azərbaycan-Avropa İttifaqı münasibətlərində yeni mərhələnin başlandığı ilə bağlı qiymətləndirmələri gücləndirib.**

Bundan əvvəl Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın Bakıya səfərindən sonra Aİ-nin daha bir ali rəhbərinin Bakıya gəlməsi Brüsselin Azərbaycana artan strateji marağının göstəricisi kimi dəyərləndirilir. Səfər zamanı Azərbaycanın strateji tərəfdaş kimi təqdim olunması, regional sülh, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizlərində rolunun xüsusi vurğulanması diqqət çəkən məqamlardan olub.

**Millət vəkili Tural Gəncəliyev "Şərq"ə səfərin siyasi və iqtisadi əhəmiyyətindən danışıb:** "Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri və Prezident İlham Əliyevlə keçirdiyi görüşlər, verdiyi mesajlar Azərbaycan-Avropa İttifaqı münasibətlərində dönüş nöqtəsi kimi qiymətləndirilməlidir.

Səfər zamanı verilən siyasi mesajlar və əldə olunan razılaşmalar göstərir ki, tərəflər arasında əməkdaşlıq artıq yeni strateji mərhələyə qədəm qoyur. Son aylarda Avropa İttifaqının ali rəhbərliyinin Azərbaycana ardıcıl səfərləri təsadüfi deyil. Bu dinamika münasibətlərin keyfiyyətcə yeni mərhələyə yüksəldiyini nümayiş etdirir. Bu ilin əvvəlində Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın, daha sonra Avropa İttifaqının xarici siyasət üzrə ali nümayəndəsinin, indi isə Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Bakıya səfəri onu göstərir ki, Avropa İttifaqı Azərbaycanla münasibətlərə tamamilə yeni prizmadan yanaşır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, münasibətlərdə görünməmiş dinamika müşahidə olunur".

**Parlamentari vurğulayıb ki, bu dinamika təsadüfi deyil, uzun illər ərzində Prezident İlham Əliyevin həyata keçirdiyi praqmatik, milli maraqlara söykənən xarici siyasətin məntiqi nəticəsidir:** "Ursula fon der Lyayenin Azərbaycanı açıq şəkildə Avropa İttifaqının strateji tərəfdaşı adlandırması olduqca mühüm siyasi hadisədir. Bu, Avropa İttifaqının Azərbaycana münasibətdə formalaşdırdığı yeni siyasi baxışın ifadəsidir. Son illər dünyada baş verən geosiyasi dəyişikliklər fonunda Azərbaycan özünü etibarlı, məsuliyyətli və proqnozlaşdırılan tərəfdaş kimi təsdiqləyib. Məhz buna görə də bu gün Avropa İttifaqı Azərbaycanı strateji tərəfdaş adlandırır. Bu yanaşma onu göstərir ki, Avropa artıq Azərbaycanı yalnız enerji resurslarına malik ölkə kimi deyil, regionda sabitliyin təmin edilməsində, nəqliyyat-kommunikasiya layihələrinin reallaşdırılmasında, iqtisadi inteqrasiyanın genişləndirilməsində və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsində mühüm rol oynayan dövlət kimi qiymətləndirir. Azərbaycanla Avropa İttifaqı arasında münasibətlər qarşılıqlı hörmət, bərabərhüquqluluq və milli maraqlara hörmət prinsipləri üzərində qurulduğu üçün bu əməkdaşlıq davamlı xarakter daşıyır".

**Deputat bildirib ki, Avropa İttifaqı Azərbaycanın regional liderliyini qəbul edir:** "Ursula fon der Lyayenin çıxışında diqqəti cəlb edən əsas məqamlardan biri də Azərbaycanın regiondakı lider mövqeyinin açıq şəkildə etiraf olunması idi. Avropa Komissiyasının Prezidenti bəyan etdi ki, Azərbaycan regional əməkdaşlığın inkişafında əsas rol oynayır, regionda sabitliyin təmin olunmasına mühüm töhfə verir və Cənubi Qafqazın gələcəyinin formalaşdırılmasında aparıcı aktordur. Bu, son illər Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin növbəti nümunəsidir. Bu gün Azərbaycan Cənubi Qafqazın ən güclü iqtisadiyyatına malik dövlətdir, regionun əsas nəqliyyat qovşağıdır, enerji təhlükəsizliyinin təminatçılarından biridir və ən əsası, yeni regional əməkdaşlıq modelinin təşəbbüskarıdır. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq layihələr regionun geosiyasi xəritəsini dəyişib və ölkəmizi Avropa ilə Asiyanı birləşdirən əsas körpüyə çevirib".

**Millət vəkili Prezident İlham Əliyevin liderliyinin sülh prosesinin əsas hərəkətverici qüvvəsi olduğunu söyləyib:** "Ursula fon der Lyayenin Prezident İlham Əliyevin liderliyini xüsusi vurğulaması da təsadüfi deyil. Avropa Komissiyasının Prezidenti açıq şəkildə bəyan etdi ki, Prezident İlham Əliyev regionda sülhün və əməkdaşlığın təşviq edilməsində şəxsi liderlik nümayiş etdirib. Bu, Azərbaycanın beynəlxalq nüfuzunun artmasının daha bir göstəricisidir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan postmünaqişə dövründə revanşizm deyil, sülh gündəliyini irəli sürdü. Ermənistanla sülh sazişinin hazırlanması, kommunikasiyaların açılması, regional əməkdaşlıq təşəbbüsləri və iqtisadi inteqrasiyanın təşviqi məhz Azərbaycanın irəli sürdüyü konsepsiyanın əsas elementləridir. Bu gün beynəlxalq ictimaiyyət də qəbul edir ki, Cənubi Qafqazda davamlı sülhün əsas memarı məhz Azərbaycandır".

**T.Gəncəliyev Azərbaycan geosiyasi mövqeyini güclü infrastrukturla birləşdirən dövlət olduğunu qeyd edib:** "Bu gün Azərbaycanın üstünlüyü təkcə əlverişli coğrafi mövqeyi ilə məhdudlaşmır. Prezident İlham Əliyevin rəhbərliyi ilə son illərdə ölkəmizdə yaradılmış müasir nəqliyyat infrastrukturu, beynəlxalq hava limanları, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolu və avtomobil magistralları Azərbaycanın tranzit potensialını tamamilə yeni səviyyəyə qaldırıb. Ursula fon der Lyayenin Azərbaycanın strateji coğrafi mövqeyi ilə müasir infrastruktur imkanlarını uğurla birləşdirən ölkə olduğunu xüsusi qeyd etməsi göstərir ki, Avropa İttifaqı Azərbaycanı artıq Avrasiyanın əsas bağlantı mərkəzlərindən biri kimi qəbul edir. Azərbaycanın təşəbbüsü ilə inkişaf etdirilən Orta Dəhliz təkcə iqtisadi layihə deyil, həm də yeni geosiyasi əməkdaşlıq platformasıdır".

**Milli Məclisin üzvü Azərbaycanın strateji baxışının ölkəni qlobal tərəfdaşlıqların mərkəzinə çevirdiyini deyib:** "Prezident İlham Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan bu gün dünyanın bütün əsas güc mərkəzləri ilə qarşılıqlı hörmətə əsaslanan münasibətlər qurmağa nail olur. Azərbaycanın xarici siyasətinin ən mühüm üstünlüyü balanslaşdırılmış və milli maraqlara əsaslanan yanaşmadır. Bu gün ölkəmiz ABŞ ilə strateji tərəfdaşlıq münasibətlərinə malikdir. Çinlə hərtərəfli strateji tərəfdaşlıq qurulub. Avropa İttifaqı isə Azərbaycanı strateji tərəfdaş kimi qəbul edir. Bu, çox nadir diplomatik uğurdur. Dünyada böyük güclər arasında rəqabətin getdikcə dərinləşdiyi bir dövrdə Azərbaycanın bütün əsas siyasi və iqtisadi mərkəzlərlə qarşılıqlı etimada əsaslanan münasibətlər qurması Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasətin nəticəsidir. Azərbaycan heç bir geosiyasi qarşıdurmanın tərəfinə çevrilmədən bütün tərəfdaşlarla milli maraqlar çərçivəsində əməkdaşlıq modelini formalaşdırıb".

**Tural Gəncəliyev söyləyib ki, Bakıda keçirilən yüksək səviyyəli görüşlər və səsləndirilən bəyanatlar Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndiyini göstərir:** "Bu gün Azərbaycan Avropa İttifaqı tərəfindən regionun lider dövləti, etibarlı strateji tərəfdaş, enerji təhlükəsizliyinin təminatçısı, sülh gündəliyinin müəllifi və Avropa ilə Asiyanı birləşdirən əsas geosiyasi körpü kimi qiymətləndirilir. Bu, Prezident İlham Əliyevin həyata keçirdiyi müstəqil, praqmatik və uzaqgörən xarici siyasətin ən mühüm nəticələrindən biridir. Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfəri və səsləndirdiyi fikirlər Azərbaycan-Avropa İttifaqı münasibətlərinin gələcək inkişafı üçün yeni siyasi və iqtisadi perspektivlər açır. Qarşıdakı dövrdə bu strateji tərəfdaşlıq daha da dərinləşəcək, ölkəmizin beynəlxalq nüfuzu və geosiyasi əhəmiyyəti isə daha da artacaq".

**Banuçiçək Kalbalıyeva**

# 40 dövlət qurumu vahid sistemə inteqrasiya olunur

## Bürokratiya azalacaq, vətəndaşlar xidmətləri bir kliklə əldə edəcək



### "Məqsəd Azərbaycanı süni intellekt sahəsində regionun liderinə çevirməkdir"

**Azərbaycanda rəqəmsal transformasiya və süni intellektin tətbiqi dövlət siyasətinin əsas prioritet istiqamətlərindən birinə çevrilib.**

Bu istiqamətdə atılan addımların və qarşıdakı hədəflərin müzakirə olunduğu mühüm platformalardan biri də iyunun 29-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası olub. İclas dövlət başçısının rəqəmsal inkişaf sahəsində verdiyi tapşırıqların icrasının nəticələrinə və qarşıdakı dövr üçün müəyyənləşdirilən prioritetlərə həsr edilib.

İclasda dövlət xidmətlərinin rəqəmsallaşdırılması, süni intellekt texnologiyalarının geniş tətbiqi, kibertəhlükəsizliyin gücləndirilməsi və innovasiya ekosisteminin inkişafı ilə bağlı mühüm hədəflər müəyyənləşdirilib. Qarşıdakı illərdə həyata keçiriləcək islahatların vətəndaşlara göstərilən xidmətlərin daha operativ, şəffaf və əlçatan olmasını təmin etməsi, eyni zamanda Azərbaycanın rəqəmsal inkişaf və süni intellekt sahəsində regionun aparıcı ölkələrindən birinə çevrilməsinə töhfə verməsi nəzərdə tutulur. Birinci vitse-prezident Mehriban Əliyeva çıxışında vurğulayıb ki, süni intellekt artıq gələcəyin deyil, bu günün əsas inkişaf amillərindən biridir və dövlətlərin təhlükəsizliyinin təmin edilməsində onun rolu getdikcə artır. O bildirib ki, dünyanın aparıcı ölkələrində süni intellektin inkişafı gözləniləndən daha sürətlə gedir və bu proses yeni imkanlarla yanaşı, yeni risklər də yaradır. Bu baxımdan, xüsusilə kibertəhlükəsizlik və informasiya təhlükəsizliyi sahəsində mövcud və potensial çağırışlara hazır olmaq, qabaqlayıcı tədbirlər görmək mühüm əhəmiyyət daşıyır.

**Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Şərq"ə açıqlamasında Rəqəmsal İnkişaf Şurasının ilk iclasını ölkədə rəqəmsal transformasiyanın yeni mərhələyə qədəm qoyduğunu göstərən mühüm addım kimi qiymətləndirib.**

**Deputat bildirib ki, artıq rəqəmsal inkişaf, süni intellekt, kibertəhlükəsizlik və innovasiya ekosisteminin formalaşdırılması istiqamətində Yol Xəritəsi hazırlanıb, 2026-2028-ci illəri əhatə edən Fəaliyyət Planında konkret hədəflər müəyyənləşdirilib:** "Məqsəd Azərbaycanı rəqəmsal inkişaf və süni intellekt sahəsində regionun aparıcı ölkələrindən birinə çevirməkdir.

Bu baxımdan vətəndaş və biznes subyektlərinin dövlət xidmətlərinə vahid platforma - "mygov" və "mygov biznes" üzərindən çıxışının təmin edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bütün dövlət qurumlarının bu platformalara inteqrasiyası nəticəsində xidmətlər daha operativ, şəffaf və əlçatan olacaq. Vətəndaşlar və sahibkarlar müxtəlif qurumlara ayrıca müraciət etmədən, tələb olunan xidmətləri vahid rəqəmsal mühitdə əldə edə biləcəklər. Bu isə həm vaxt itkisini, həm də bürokratik prosedurları əhəmiyyətli dərəcədə azaldacaq.

Eyni zamanda, dövlət qurumları arasında məlumat mübadiləsinin tam rəqəmsallaşdırılması təkrar sənəd təqdim edilməsi hallarını minimuma endirəcək, qərarların qəbulunu sürətləndirəcək və dövlət xidmətlərinin keyfiyyətini daha da yüksəldəcək".

**A.Badamovun sözlərinə görə, mərkəzləşdirilmiş data infrastrukturunun yaradılması informasiya təhlükəsizliyinin gücləndirilməsinə və dövlət idarəçiliyində səmərəliliyin artırılmasına da mühüm töhfə verəcək:** "Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyevin açıqladığı kimi, 2026-2028-ci illər üzrə Fəaliyyət Planı 58 təşəbbüsü əhatə edir. Bu istiqamətdə 40 dövlət qurumu ilə yol xəritələri hazırlanıb, onlardan 13-ü artıq təsdiqlənib və ya təsdiq mərhələsindədir. Bu, dövlət qurumları arasında koordinasiyanın daha da gücləndiyini göstərir.

Son üç ay ərzində "mygov" platformasının istifadəçilərinin sayının 2,7 milyondan 3,5 milyona yüksəlməsi vətəndaşların rəqəmsal xidmətlərə olan etimadının və marağının artdığını nümayiş etdirir. Bu dinamika onu göstərir ki, həyata keçirilən islahatlar cəmiyyət tərəfindən müsbət qarşılanır və öz real nəticələrini verməyə başlayıb.

Hesab edirəm ki, dövlət xidmətlərinin "mygov" və "mygov biznes" platformalarında vahid şəkildə təqdim olunması dövlət idarəçiliyində çevikliyi, şəffaflığı və hesabatlılığı daha da artıracaq, vətəndaş məmnuniyyətinin yüksəlməsinə, sahibkarlıq mühitinin yaxşılaşmasına və Azərbaycanın rəqəmsal iqtisadiyyatının inkişafına mühüm töhfə verəcək".

**Şəymən Bayramova**

# Əsrin Türkoloji Qurultayı

## Azərbaycan Türk Ocağı yeni layihəyə başlayır




**Azərbaycan Türk Ocağı İctimai Birliyi Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə "Birinci Bakı Türkoloji Qurultayı arxiv sənədlərində" adlı layihənin icrasına başlayır.**

**Bu barədə "Şərq"ə Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri Akif Aşırlı məlumat verib.**

Üç ay müddətində həyata keçiriləcək layihənin əsas məqsədi barədə danışan A.Aşırlı bildirib ki, 1926-cı ildə Bakıda keçirilən Birinci Bakı Türkoloji Qurultayı ilə bağlı Türkiyə və Azərbaycan arxivlərindəki sənədlər, mətbuat materialları və memuarların araşdırılması, elmi ictimaiyyətə və geniş oxucu auditoriyasına çatdırılması, həmçinin qurultayın latın qrafikalı əlifbaya keçid prosesi, qarşıya çıxan maneələr, Azərbaycanın türk dünyasının elmi və mədəni tarixində tutduğu mühüm yerin təbliğidir.

Layihə çərçivəsində arxiv və materiallarının toplanması, qəzet materiallarının, memuarların təhlili, maarifləndirici məlumatların hazırlanıb çap və internet mediada yayılması, həmin dövr Türkiyə, Rusiya və Azərbaycan aydınlarının mövqelərində oxşalıqların müəyyən olunması, eləcə də mövzu ilə bağlı ictimaiyyətin məlumatlandırılmasına xidmət edən müxtəlif tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Türk Dünyasının ortaq dəyərlərinin təbliğini həyata keçirən, 1918-ci ildən bu missiyanı uğurla daşıyan Azərbaycan Türk Ocağı İctimai Birliyi hesab edir ki, bu layihə Azərbaycanın dövlətçilik irsinin qorunması, Vahid Türk platformasının yaranmasında Bakının mövqeyi və rolunun təbliği istiqamətində mühüm töhfə verəcək.

**Turan**

# Xameneinin dəfnində Azərbaycandan Sahibə Qafarova, Şahin Mustafayev və digər rəsmilər iştirak edəcək

**İranın sabiq Ali rəhbəri Seyid Əli Xameneinin dəfn mərasimində Azərbaycandan nümayəndə heyəti iştirak edəcək.**



APA xəbər verir ki, nümayəndə heyətinə Milli Məclisin sədri Sahibə Qafarova, Baş nazirin müavini Şahin Mustafayev, Naxçıvan Muxtar Respublikasının Baş naziri Cabbar Musayev və digər rəsmilər daxildir.

Qeyd edək ki, Əli Xameneinin vida mərasimi 4-5 iyul tarixlərində Tehrandakı Mosalla kompleksində keçiriləcək, cənazə daha sonra Qum şəhərinə yola salınacaq.

Qum şəhərində vida mərasimindən sonra Ayətullah Seyid Əli Xamenei öz vəsiyyətinə uyğun olaraq iyulun 9-da Məşhəddə torpağa tapşırılacaq.

Xatırladaq ki, Seyid Əli Xamenei 28 fevralda ABŞ və İsrailin Tehrana birgə hücumu zamanı yaxın ailə üzvləri ilə birlikdə öldürülüb.

Daha sonra onun yerinə oğlu Müctəba Xamenei seçilib.

Əlavə edək ki, İranın Ali Rəhbərinin nümayəndəsi Ayətullah Həkim Elahi Müctəba Xameneinin atasının dəfnində iştirak etməyəcəyini açıqlayıb.

O bunu təhlükəsizlik məsələləri ilə əsaslandırıb.



# I Bakı Türkoloji qurultayın gizlinləri - mətbuat nə yazırdı?



*Akif Aşırlı,*
*Əməkdar jurnalist*

**26 fevral-6 mart 1926-cı ildə Bakıda keçirilən Türk xalqlarının milli-mədəni birliyinə növbəti təkan verən Birinci Bakı Türkoloji Qurultayı Azərbaycan anadilli mətbuatının diqqət yönəltdiyi əsas mövzulardan biridir. Aparılan araşdırmalarda təəssüf ki, azərbaycandilli nəşrlərə nisbətən rusdilli qəzet və jurnallara istinadlar çoxluq təşkil edir. Qurultay barədə tədqiqatlarda "Bakinskiy raboçiy", "Zarya", "Pravda" və digər mətbu nəşrlər əsas götürülsə də, anadilli "Kommunist", "Yeni fikir", "İnqilab və mədəniyyət", "Yeni yol", Qərbi Azərbaycanda çap olunan "Zəngi" qəzetlərinə istinadlar çox azdır. Bunun səbəbi həmin dövrün qəzet və məcmuələrin böyük bir qisminin ərəb əlifbasında çap olunması, bu əlifbadan istifadə edən tədqiqatçıların sayının yetərincə olmamasıdır.**

Sovet mətbuatının təbliğat-təşviqat missiyasından doğan xeyli sayda məqalə, "ərəbçi"lər və "latınçı"ların fikir çəkişmələri, ərəb əlifbasının latın qrafikası ilə əvəzlənməsi, türk ləhcələrinin yaxınlaşması, saf türkcənin formalaşması, dilin islahı barədə faktoloji materiallar qəzet və məcmuələrdə yetərincə çap olunub. 1926-cı ildə "Bakinskiy raboçiy" qəzeti nəşriyyatı tərəfindən çap olunan stenoqrafik hesabatda qurultayın açılışı, məruzəçilərin çıxışları, səhər-axşam iclaslarının stenoqramı ilə mətbuat materialları arasında paralel müqayisə və təhlillərdə ortaya çıxan nəticədə fərqliliklər var. "Stenoqrafik hesabat"da qurultay nümayəndələrinin və məruzəçilərin çıxışları tarixi ardıcıllıqla geniş çap olunsa da, qurultayın keçirildiyi bir həftə ərzində qəzetlərdə çap olunan materiallarda konkretlik, yığcamlıq var. Qəzet və dərgilərdəki məlumatların təhlili onu göstərir ki, "ərəbçi"lərin mövqeyindən daha çox "latınçı"lara mövqelərini əsaslandırmaq üçün daha geniş yer verilib. Sovet rejiminin təbliğat ruporu olan mətbuatda dünya türkoloqların ortaq müzakirə platforması olan qurultaya bəzən siyasi-ideoloji rəng qatır, elmi tədbirin mahiyyəti siyasiləşdirilir, leninizmin qələbəsi olaraq təqdim olunurdu.

Qurultay türk xalqlarının taleyində, tarixində və mədəni birliyində ən mühüm addım kimi diqqət çəkir və cavabı müxtəlif istiqamətlərə yönələn xeyli sual yaranır. Özülü 6 il əvvəl qurulan Sovet İmperiyasının bu, Türk xalqlarının vahid platformalarda birliyinin təmininə yönələn, yeni Türk əlifbasının yaranması, savadsızlığın aradan qaldırılması istiqamətində təşəbbüs və addımlarında marağı və məqsədi nə idi? Sovetlərin müstəqil dövlətlərini zorla zəbt etdiyi türklərin əlifba, dil, terminologiya, arxeologiya, tarixi birliyi üçün birdən-birə ümumittifaq miqyasında islahatlara başlamasının səbəbləri maraq doğurmaya bilməz. Sovet imperiyasının ilk dəfə Bakıda geniş miqyasda İran, Türkiyə və bəzi Avropa dövlətlərinin məşhur dilçilərinin, alimlərinin qatıldığı bu qurultayın keçirilmə səbəblərindən biri müstəqil dövlətlərini zəbt edərək ruslaşdırma, özgələşdirmə siyasətinə məruz qoyduğu Rusiya içərilərində yaşayan 30 milyon türkü Atatürkün qurduğu müstəqil Türkiyə Cümhuriyyətindən ideoloji cəhətdən ayırmaq idi. Çünki İstanbulda, Ankarada, Anadoluda çap olunan dərgilər, qəzet və kitablar Bakıda, Tiflisdə, Buxarada, Səmərqənddə, Krımda, İdil-Ural boylarında çox asan oxunur, türk yurdlarında türkçülük duyğularını, milli hisslərini öləziməyə qoymurdu. İkinci əsas niyyət isə ərəb əlifbasında nazil olan Qurana qarşı kommunistlərin apardığı ideoloji savaş idi. 1923-cü ildə rəsmi şəkildə Azərbaycanda Allahsızlar Cəmiyyəti yaradan kommunistlərin əsas niyyəti turk xalqlarının dini inanclarını aradan qaldırmaq, guya fanatizmlə, cəhalətlə mübarizə aparmaq idi. Üçüncü ən mühüm faktor isə Türkiyədə mühacirətdə olan Azərbaycan Xalq Cümhuriyyəti lideri M.Ə.Rəsulzadəyə, onun silahdaşlarına qarşı "öldürücü zərbə" vurmaq, mühacirlərin ideoloji mübarizəsinin qarşısının alınması məqsədi daşıyırdı. M.Ə.Rəsulzadə 1923-cü ilin sentyabrın 16-da İstanbulda nəşr etdiyi "Yeni Qafqaziya" dərgisində bolşeviklərin bölgədə törətdikləri qətliamları, ruslaşdırma siyasətini, xüsusən Bakı və Muğan bölgələrinə rusların kütləvi köçürülməsini, dövlət vəzifələrinə Azərbaycan türklərindən daha çox rusların, ermənilərin təyin olunmasını tənqid edirdi.

Sovetlərin əsas qayələrindən biri beynəlxalq aləmdə Sovet Rusiyasının müstəqilliyini zorla qəsb etdiyi xalqlar üzərində imperialist rolu barədə ittihamlarının qarşısını bu qurultayın təşkili ilə almaq idi.

**Bakı niyə Türkoloji mərkəz seçildi?**

Ana dilində nəşr olunan materialların, siyasi yazıların, hesab xarakterli materialların tədqiqi onu göstərir ki, müxtəlif qəzet və dərgilərdə qurultayın adı terminoloji baxımdan müxtəlif formada istifadə edilib. Bəzi mətbu orqanlar qurultayı Ümumittifaq türkoloji qurultay kimi təqdim edir. Bir qism mətbu nəşrlərdə Bakı I Türkoloji qurultayı, Azərbaycan Türkoloji Qurultayı və sadəcə Türkoloji qurultay terminləri ilə ifadə olunur. Ümumittifaq sovetlər birliyi miqyasında keçirilən bu toplantının Bakıda keçirilmə səbəbləri barədə də dövrün mətbu salnamələrində maraqlı məlumat və faktlar var. Akademik Bartold Qurultayın ilk dəfə Rusiyanın türkoloji mərkəzi hesab olunan Leninqradda, sonra isə Moskvada keçirilməsinin nəzərdə tutulduğunu, amma maddi imkanların yetərli olmaması səbəbindən baş tutmadığını yazır: "Qurultayın Bakıda çağırılmasına dair bir çox dəlillər vardır. Sabiq Rusiyada pək az şəhər var ki, Bakı kimi inqilabdan sonra iqtisadi, mədəni əhəmiyyəti əvvəlkindən daha ziyadə artmış olsun. Bu hadisənin səbəblərindən bəhs etməklə bərabər danmaq olmaz ki, əksər əhalisi türk olan sair cümhuriyyətlərin həpsinə nisbətdə Azərbaycan Cümhuriyyəti və onun paytaxtı olan Bakı şəhəri darülfününun həyatı və ümumiyyətlə elmi həyatı daha yüksək səviyyədə saxlamağa müvəffəq olmuşdur". Bartold Bakının coğrafi mövqeyinə görə qurultayın digər respublikalarda keçirilməsindən daha əlverişli olduğuna diqqət yönəldir: "Bakı Moskvaya Leninqraddan, istər Krıma, Tatarıstan, Türkmənistan, Tatarıstan cümhuriyyətlərindən gələnlər üçün daha əlverişlidir".

"Kommunist" qəzetində dərc olunan "Türkoloji qurultayın təşkili" məqaləsində qurultayın müəyyənləşməsi, Krımda, Tatarıstan və Özbəkistanda aparılan elmi müzakirələr, konfranslar barədə məlumat verilir və qeyd edilir ki, 1923-cü ildən I Azərbaycan Türkoloji Qurultayına hazırlıqlara başlanılıb və nəticədə 1925-ci ildə yekun qərar verilib: "Bu il (yəni 1925-ci ilin) avqust ayında Şuralar İttifaqı Xalq Komissarlar Şurası qurultayın təşkilat komitəsinin sədri Mixail Yuriyeviçin məruzəsi üzrə 1925-ci ilin kanuni - əvvəl ayında Bakıda qurultayın çağırılması barəsində qərar çıxarılmış və beləliklə, qurultayın çağırılması qəti surətdə həll edilmişdir".

Qurultayın təşkili barədə xəbərin Sovetlər Birliyinin tərkibində olan Türk cümhuriyyətlərində hərarətlə qarşılandığı və verilən qərardan 3-4 həftə sonra Türküstanda, Tatarıstanda, Krımda, Şimali Qafqazda, hətta Ermənistan və Gürcüstanda belə qurultaya göndəriləcək nümayəndələr, oxunacaq məruzələr müzakirə edilib, müvafiq qərarlar qəbul edilib.

Qurultayda Rusiya, İran, Türkiyə, bəzi Avropa ölkələrindən 130 nəfərin iştirak edəcəyi, Şuralar İttifaqından 30-dan çox cümhuriyyət və əyalətlərində yaşayan türk-tatar nümayəndələrinin qatılacağı barədə də dövrün mətbu səhifələrində məlumatlar əks olunub. Bu barədə "Qurultayın təşkili barədə" genişhəcmli faktlarla zəngin məqaləsində dünyanın məşhur türkoloq-alimlərinin, akademik Bartoldun, professor Samalyoviçin, almaniyalı alim Yanqın, Fuad Köprülüzadənin məruzə ilə çıxış edəcəyi xəbər verilirdi.

**Türkiyə nümayəndələri Ə.Hüseynzadə və Fuad Köprülü**

"Biz azərbaycanlılar müsafirlərimizi ürəkdən və səmimiyyətlə qarşılayacağız" söyləyən Qurultayın təşkilat komitəsi sədri Səməd Ağamalıoğlu ümid edirdi ki, Bakının ev sahibliyi etdiyi bu ali məclis türk xalqlarının gələcək həyatında, elmi-texniki tərəqqi yolunda inkişafına böyük imkanlar açacaq. Qurultay ərəfəsi mətbuatın ən çox diqqət yönəltdiyi məsələ xaricdən gələn türkoloq-alimlərin mövqeyi, ərəb əlifbasının latın qrafikalı yeni əlifba ilə əvəz edilməsinə, sovetlərin tərkibində olan türk xalqlarının tarixi keçmişinə, mədəniyyətinə verilən önəm barədə məlumatların əldə olunub yazılmasıdır. Əsas diqqət Türkiyə Cümhuriyyətindən qurultaya qatılan professorlar Əli bəy Hüseynzadə və Fuad Köprülü idi. Ə.Hüseynzadə və F.Köprülü Azərbaycanda kifayət qədər tanınan, fikirlərinə önəm verilən alimlər olduğundan və Türkiyənin ərəb əlifbasının latın qrafikasına keçirilməsinə münasibətinin sovetlər tərəfindən öyrənilməsində bu iki alim diqqətdə saxlanılır və ehtiyatlı davranılırdı. Azərbaycanda doğulan və Türkiyəyə mühacirət edən böyük mütəfəkkir, turançılığın banilərindən Əli bəy Hüseynzadə axırıncı dəfə Bakıda Qafqaz İslam Ordusunun Azərbaycanın ərazi bütövlüyü və istiqlal savaşı apardığı 1918-ci ilin iyun-iyul aylarında olmuşdur. O zamandan bəri Azərbaycana gəlməyən Ə.Hüseynzadə Bakının mərkəzində qatar stansiyasında müxbirlərə verdiyi açıqlamada deyir: "Uzun illər ayrıldığım Azərbaycana gələrkən dərin sevinc duydum. Türkoloji qurultay mühüm bir hadisədir". Ə.Hüseynzadə Bakıda "Kommunist" və "Yeni fikir" qəzetlərinə verdiyi qısa açıqlamada Türkiyə dövlətinin latın qrafikasına keçidlə bağlı yekdil qərarı olmadığından Türkiyənin əlifba islahatına münasibəti ilə bağlı suallara diplomatik cavab verir, sadəcə hərf dəyişməsini inqilab adlandırırdı. Qəzetlər, xüsusən "Kommunist" qəzeti Ə.Hüseynzadənin bu "ehtiyatlı mövqeyini" tənqid edir, latınçıların ərəbçilərə qarşı savaşında neytral mövqe tutduğu istehza ilə xatırlanırdı.

Fuad Köprülü Türkiyədə türkologiyanın vəziyyəti, dövlətin latın əlifbasına keçid layihəsinin olub-olmaması barədə verilən sual barədə "Kommunist" qəzetinin müxbirinə verdiyi qısa müsahibədə belə cavab verərək qeyd edir ki, Türkiyədə hərf məsələsi 15 ildən bəri mövzui-bəhs olunur. "Bu xüsusda ortaya dürlü-dürlü fikirlər atılmışdır. Bunların ən başlıcası üç fikir ətrafında toplanıyor.

1) Şimdiki ərəb hərflərinin islahı;

2) Latın hərflərinin türkcəyə görə bəzi dəyişikliklərlə qəbulu;

3) Yenə də ərəb hərflərindən olmaq üzrə ayrı-ayrı şəkillərdən mürəkkəb bir əlifbanın qəbulu. Bu müxtəlif cərəyanların müxtəlif müməsil və tərəfdarları vardır".

Professor Fuad Köprülü Bakıya gəlişinin ilk günü vaxtilə Trabzon Türk Ocağında verdiyi bir konfransdakı fikirlərinin "Yeni fikir" qəzetində təhrif olunduğunu görür və etiraz edir. Əslində, F.Köprülü konfrans vermədiyini, sadəcə, Batumdan İstanbula dönərkən Trabzonda beş-altı saat qaldığını, Türk Ocağını ziyarət edərək bəzi dostlarla görüşüb söhbətləşdiyini bildirir. Professorun bu söhbətini konfrans adlandıran "Yeni fikir" qəzeti guya F.Köprülü Türkiyə Cümhuriyyətinin Sovet Rusiyasına nisbətdə mənəvi və dini inkişafdan geridə qaldığını söyləyib və deyib: "Əgər bizim mənəvi və dini inkişafımız bugünkü bulunduğu icma nöqtəsində qalarsa, Şuralar İttifaqındakı türklərin üzərində təsir imkanlarını itirəcəyik". Bu fikirlərin ona məxsus olmadığını qeyd edən F.Köprülü Türkiyə Cümhuriyyətinin ən böyük və ən çətin ictimai inqilabları müvəffəqiyyətlə həyata keçirdiyini, Sovet İttifaqına dost münasibəti göstərdiyini xüsusi vurğulayır, Türkiyə ilə Rusiyanın türklər üzərində nüfuz savaşı aparmadığını bildirir, onun adından yazılanları təkzib edirdi.

*Qeyd edək ki, Ə.Hüseynzadə Bakıda qurultayda xüsusi qeyd dəftərçəsi tərtib edib, bu qeydlərin bir hissəsini Əliheydər Bayat və Ziya Ülkən çap edib.*



# Azərbaycanda "kağızsız hökumət" modeli qurulur

## Mehriban xanım strateji hədəfləri daha konkret prinsiplərlə müəyyənləşdirdi

**Bu gün bəşəriyyət rəqəmsal sürətin və texnoloji innovasiyaların idarə etdiyi yeni epoxanın astanasındadır. Azərbaycan da digər ölkələr kimi bütün sahələrdə rəqəmsallaşmanın inteqrasiyasını sürətləndirməyi hədəfləyib.**

Prezident İlham Əliyevin 27 fevral tarixində imzaladığı Sərəncama əsasən "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiq edildi. Planın praktiki icrası və qarşıya qoyulan hədəflər isə Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının ilk iclasında müzakirə olunub. M.Əliyeva bildirib ki, əsas məqsəd Azərbaycanın rəqəmsal inkişaf və süni intellekt sahələrində regionun aparıcı dövlətlərindən birinə çevrilməsini təmin etməkdir. Rəqəmsal transformasiya prosesi dövlət idarəçiliyi və təhsil sahələri də daxil olmaqla müxtəlif istiqamətləri əhatə edəcək. Diqqətçəkən əsas məqamlardan biri də dövlət idarəçiliyində "kağızsız hökumət" modelinə keçidin prioritet istiqamət kimi müəyyən edilməsidir.

**Bütün müraciətlər rəqəmsal mühitə keçir, vətəndaşlar dövlət xidmətlərini bir toxunuşla əldə edəcək**

**Bəs bu mexanizm necə və hansı istiqamətlər üzrə həyata keçiriləcək?**

**Mövzu ilə bağlı millət vəkili Hikmət Babaoğlu "Şərq"ə bildirib ki, Birinci vitse-prezidentin rəhbərliyi altında baş tutan iclasda, Azərbaycanın idarəetmə modelinin formalaşdırılması istiqamətində yeni mərhələnin əsasları müəyyən edilib:** "Toplantıda Azərbaycanda dövlət idarəçiliyinin təkmilləşdirilməsi, eləcə də dövlət xidmətlərinin vətəndaşlar üçün daha çevik, şəffaf və səmərəli təşkili istiqamətində mühüm məsələlər müzakirə olundu. Rəqəmsal idarəetmə, dövlət institutunun inkişafının yeni keyfiyyət mərhələsi kimi qiymətləndirilməlidir. Çünki müasir texnologiyalar idarəetmə proseslərinin səmərəliliyinin artırılmasına, süni intellektin tətbiqi isə qısa müddətdə daha çevik, düzgün və əsaslandırılmış qərarların qəbul edilməsinə geniş imkanlar yaradacaq".

**Deputat bildirib ki, əslində, Azərbaycanda qərarların vaxtında və operativ qəbul edilməsini təmin etmək məqsədilə uzun müddətdir ki, kağız əsaslı bürokratik idarəetmə modelindən uzaqlaşma prosesi həyata keçirilir:** "Mehriban xanım isə bu məsələdə strateji hədəfləri daha konkret prinsiplərlə müəyyənləşdirdi. 2028-ci ilə qədər dövlət idarəetmə aparatında "kağızsız hökumət" modelinə keçməsinin zəruriliyini önə çəkdi. Bu islahat həm qurumlararası idarəetmə mexanizmlərini, həm də xalq-hökumət dialoqunun dinamikasını kökündən dəyişərək, tərəflər arasındakı interaktiv əlaqənin sürətlənməsinə xidmət edəcək. Başqa sözlə desək, hər bir vətəndaş məkandan asılı olmayaraq, əlindəki mobil və ya elektron cihaz vasitəsilə dövlət qurumlarına bir toxunuşla müraciət etmək və eyni operativliklə rəsmi cavab almaq imkanı qazanacaq".

**Aybəniz Səfərova**

# BMT-dən Azərbaycana mühüm qiymət

## Yol təhlükəsizliyi sahəsində görülən işlər yüksək dəyərləndirildi



**Dünən Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan BMT Baş katibinin yol təhlükəsizliyi üzrə xüsusi elçisi Jan Todt ilə görüşüb.**

"Şərq" xəbər verir ki, bu barədə Azərbaycan Xarici İşlər Nazirliyi məlumat yayıb.

Bildirilib ki, görüş zamanı Azərbaycan ilə BMT arasında mövcud əməkdaşlıq gündəliyi, yol təhlükəsizliyi sahəsində beynəlxalq əməkdaşlıq məsələləri, habelə bu istiqamətdə qlobal təşəbbüslər ətrafında fikir mübadiləsi aparılıb.

Ceyhun Bayramov ölkəmizin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası, təhlükəsiz, dayanıqlı və müasir nəqliyyat sisteminin inkişafı, eləcə də yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi ardıcıl islahatlar barədə məlumat verib. Bu çərçivədə, nəqliyyat infrastrukturunun müasirləşdirilməsi, rəqəmsal həllərin tətbiqi və yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsi sahəsində görülən işlər vurğulanıb. Nazir həmçinin bütün ölkə ərazisində, xüsusilə də işğaldan azad edilmiş ərazilərimizdə yüksək səvuyyəli yol və infrastruktur layihələrinin həyata keçirildiyini diqqətə çatdırıb.

Jan Todt BMT Baş katibinin xüsusi elçisi qismində həyata keçirilən fəaliyyət, yol-nəqliyyat hadisələrinin qarşısının alınması və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində görülən tədbirlər barədə məlumat verib. O, Azərbaycanın yol təhlükəsizliyi sahəsində həyata keçirdiyi tədbirləri və əldə olunan irəliləyişi yüksək qiymətləndirib, bu istiqamətdə əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüş zamanı həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.



# Putinin yaşı və ölkədəki böhran gözlənilməz senariləri istisna etmir

## **Tofiq Zülfüqarov:** "Böhran dərinləşdikcə hakimiyyəti ələ keçirmək istəyən qruplar fəallaşacaq"

**Rusiyanın Ukraynaya qarşı başladığı genişmiqyaslı müharibə dördüncü ilinə yaxınlaşdığı bir vaxtda Kremlin gələcəyi ilə bağlı proqnozlar yenidən beynəlxalq müzakirələrin mərkəzinə çıxıb. Müharibənin uzanması, hərbi itkilərin artması, iqtisadi sanksiyaların təsiri və cəmiyyət daxilində narazılığın güclənməsi fonunda Prezident Vladimir Putinin hakimiyyətinin perspektivi barədə fərqli qiymətləndirmələr səsləndirilir.**

"Forbes" nəşrinin yazarı və siyasi analitik Melik Kaylan hesab edir ki, Putin 2022-ci ildən bəri davam edən müharibənin ən ağır siyasi böhranı ilə üz-üzədir. Onun fikrincə, Ukraynanın Rusiyanın hərbi və yanacaq infrastrukturuna müntəzəm zərbələri, xüsusilə Krım və digər bölgələrdə yaranan yanacaq qıtlığı, səfərbərlikdə yaşanan çətinliklər, eləcə də ölkə daxilində narazılığın artması Kremlin mövqeyini ciddi şəkildə zəiflədir. Kaylan vurğulayır ki, avtoritar rejimlərdə legitimliyin əsas dayağı güc və sabitlik görüntüsüdür. Bu etimad sarsıldıqda isə hakimiyyət daxilində parçalanma və rəhbərliyin dəyişməsi ehtimalı artır.

Analitik Putinin hakimiyyətdən getməsi ilə bağlı bir neçə mümkün senarinin mövcud olduğunu qeyd edir. Bunlara Kreml daxilində saray çevrilişi, müharibənin uğursuz nəticələrinə görə məsuliyyətin bir nəfərin üzərinə qoyulduğu nümayiş xarakterli məhkəmə prosesi və ya hakimiyyət elitasının yeni siyasi fiqur ətrafında birləşməsi daxildir. Kaylanın qənaətincə, hazırkı mənfi tendensiyalar dəyişməz qalarsa, Putin yaxın üç il ərzində hakimiyyətini itirə bilər.

**Məsələni analiz edən sabiq xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə deyib ki, uzun müddətdir davam edən genişmiqyaslı hərbi əməliyyatlar, böyük itkilərlə müşayiət olunan müharibə və hazırda yaşanan enerji böhranı nəticəsində Rusiyada sosial-siyasi gərginlik artmaqdadır:** "Təbii ki, bu amillər Putinin reytinqinin aşağı düşməsi üçün ciddi səbəblər yaradır. Belə olan halda, təkcə müxalifət deyil, hakimiyyət daxilindəki müxtəlif güc qrupları da vəziyyəti diqqətlə izləyirlər. "Kreml qüllələri" bu böhrandan çıxış yolu kimi hakimiyyət dəyişikliyi variantını da nəzərdən keçirə bilərlər. Əsas gərginlik və əsas təhlükə də məhz bundan ibarətdir. Artıq buna bənzər proseslər əvvəllər də baş verib. Məsələn, Priqojinin qiyamı, müxtəlif kadr dəyişiklikləri bunu göstərir. Proseslər davam edir və təbii ki, onların son nəticəsi bu və ya digər formada Ukraynadakı müharibənin dayanması ilə bağlı olacaq".

**T.Zülfüqarov qeyd edib ki, hakimiyyətə hansı qüvvələrin gələcəyi məsələsinə gəldikdə isə Rusiyada real gücə malik namizədin olub-olmaması hazırda ən aktual suallardan biridir:** "Əsassız fikirlər səsləndirmək istəmirəm. Bu, strateji xarakterli informasiyadır. Mənim elə mənbələrim yoxdur ki, qəti şəkildə deyim, hakimiyyətə kim gələcək. Bəllidir ki, siyasi iddialar siyasi həyatın qanunauyğunluqlarından biridir. Böhran yaranan kimi hakimiyyət zəifləyir və onu əvəzləmək üçün müxtəlif qruplar hərəkətə keçir. Ancaq başa düşməliyik ki, Rusiyanın siyasi mühitində hakimiyyətin seçkilər və ya müxalifətin siyasi fəaliyyəti nəticəsində dəyişməsi o qədər də inandırıcı görünmür. Amma daxili qarşıdurmalar və ya ölkə daxilində yaranacaq ciddi gərginlik hakimiyyət dəyişikliyinə gətirib çıxara bilər. Bir məqamı da unutmayaq ki, Putinin artıq yaşı da kifayət qədər çoxdur və bu baxımdan müxtəlif hadisələrin baş verməsi də istisna deyil".

**Nihat Müzəffər**

# Paytaxtda oxumaq ailələr üçün ağır yükə çevrilib

## Təhsil haqları, tələbələrin sosial durumu nəzərə alınmaqla müəyyən edilməlidir



**İnkişaf etmək və ölkənin parlaq simasına çevrilmək hər bir gəncin arzusudur. Bunu həyata keçirmək üçün uzanan yollar ali təhsilə söykənir. Lakin universitet və kolleclərin təhsil haqları ilə sosial durumu aşağı olan əhalinin gəlirləri arasında uçurum qədər fərq var.**

Çox vaxt övladları ödənişli əsaslarla qəbul olan valideynlər təhsil haqqını ödəmək üçün banklara müraciət etmək məcburiyyətində qalırlar. Tələbə və valideynlərin ən çox şikayətləndiyi məsələ təhsil haqqının məbləğinin yüksək olmasıdır. Ötən ilin statistik göstəriciləri də bunu bir daha sübut edir. Statistikaya görə, Azərbaycanda təxminən 13 min tələbə universitet və kolleclərdən xaric edilib. Onların arasında akademik borca görə xaric edilənlər də var. Amma minlərlə gənc təhsil haqqını ödəyə bilmədiyi, davamiyyət problemi yaşadığı və müxtəlif sosial səbəblərlə təhsildən uzaq düşüb. Məsələnin ən ağır tərəfi odur ki, məhz həmin dövr ərzində 200 tələbə həyatını itirib.

**Mövzu ilə bağlı sosioloq Nailə İsmayılova "Şərq"ə bildirib ki, tələbənin yaşadığı maddi çətinliklər onlara tələbəlik illərini istədikləri kimi yaşamağa imkan vermir:** "Bəzən ödənişli əsaslarla oxuyan tələbələr təhsil haqqını ödəməkdə çətinlik çəkdiyi üçün təhsilini yarımçıq qoyur. Xüsusilə bölgələrdən gələn tələbələrin paytaxtdakı yaşayış xərcləri və təhsil haqları ailə büdcəsinə ağırlıq gətirir. Maddi durumu çətinləşən valideynlər övladlarını təhsildən ayırmaq məcburiyyətində qalırlar. Əgər ailənin sosial durumu imkan vermirsə, ödənişli təhsil üçün nəzərdə tutulan pulu israf etməkdənsə, hazırlaşıb növbəti ildə imtahan verməyi daha məqbul hesab edirəm".

**Sosioloqun sözlərinə görə, universitetlərdəki təhsil haqları, tələbələrin sosial durumu nəzərə alınmaqla müəyyən edilməlidir:** "Bu mövzuda geniş ictimai dinləmələr keçirilməlidir. Bir dəfə tələblərlə baş tutan görüşdə sorğu keçirdik. Onların əksəriyyəti yarımştat iş tapmaqda çətinlik çəkdiklərini bildirmişdilər. Tələbələrə bu cür imkanların yaradılması ilə bağlı təkliflər irəli sürdüm. Mənim tələbə olduğum dönəmdə axşam şöbəsi var idi. Tələbə gündüz işləyir, axşam isə oxuyurdu. Bu da onun ailə vəziyyətinə və özünə çox böyük maddi dəstək olurdu. Onların peşələrinə uyğun yarımştat işlə təmin olunması, universiteti bitirənə qədər ixtisaslarını praktiki baxımdan mənimsəmələrinə şərait yaradacaq".

**N.İsmayılova onu da qeyd edib ki, tələbələrin təcrübə qazanmaları üçün lazımi şərait yoxdur:** "Tələbələrin gileyləndiyi əsas məsələlərdən biri də təcrübəyə cəlb olunma prosesidir. Hazırda onların təhsillərini bitirib əmək bazarına qədəm qoyanda qarşılaşdıqları ilk sual, ixtisasları üzrə iş təcrübəsinin olub-olmaması ilə bağlıdır. Aydın məsələdir ki, 1-ci kurs tələbələrin dərsə və mühitə adaptasiya dövrüdür. Lakin növbəti kurslarda tələbələrin praktiki təcrübə qazanması üçün imkanlar yaradılmalıdır. Bu proses elə tənzimlənməlidir ki, tələbə həm ixtisası üzrə təcrübə toplasın, həm də qismən də olsa, ödənişlə təmin edilsin. Çünki həmin müəssisəyə gedib-gəlmək tələbələr üçün əlavə nəqliyyat xərcləri deməkdir. Subyektiv fikrimin Elm və Təhsil Nazirliyi tərəfindən necə qarşılanacağı haqqında heç nə deyə bilmərəm".

**Aybəniz Səfərova**



# "Xəyali statistika ilə pensiya yaşını artırıblar"

## **Tural Abbaslı:** "Kişilərin çoxu 65 yaşına çatmır, bu halda pensiya yaşı niyə 65-dir?"

**Azərbaycanda qadınların pensiya yaşı 65 olub. Bununla da qadınların pensiya yaşı kişilərin pensiya yaşı ilə bərabərləşib.**

Bu rəqəm kişilər üçün 2021-ci ilin iyunun 30-da tamamlanıb.

Qeyd edək ki, "Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır.

"Əmək pensiyaları haqqında" qanunun 7-ci maddəsinə əsasən, pensiya yaşına çatmış şəxsin fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə sığorta stajından asılı olmayaraq, bu pensiya təminatına imkan vermədikdə isə azı 25 il sığorta stajı olduqda (2017-ci il iyulun 1-dək yaşa görə əmək pensiyası təyin edilmiş şəxslər istisna olmaqla) yaşa görə əmək pensiyası hüququ var.

**AĞ Partiyanın sədri Tural Abbaslı "Şərq"ə bildirib ki, pensiya yaşının artırılması qəbuledilməzdir:** "Dünyanın əksər ölkələrində qadınların pensiya yaşı, mütləq şəkildə, kişilərdən 2-3 il az olur. Çünki burada həm də qadınların ailədəki rolu, ana kimi məsuliyyəti, evdəki işləri nəzərə alınır və onları daha tez pensiyaya çıxarırlar. Təəssüf ki, Azərbaycanda xəyali rəqəmlərə, xəyali statistikaya istinad edərək pensiya yaşı həm kişilər, həm də qadınlar üçün maksimum səviyyəyə qaldırılıb. Yəni baxsaq, qonşu ölkələr arasında, istər regionda, istərsə də keçmiş MDB məkanında ən yüksək pensiya yaşı Azərbaycandadır. Halbuki Azərbaycan Dövlət Statistika Komitəsinin öz rəqəmlərinə görə, kişilərin 60 faizə yaxını 65 yaşına çatmadan dünyasını dəyişir. Belə bir ölkədə kişilərin böyük əksəriyyəti 65 yaşa çatmırsa və pensiya yaşı 65 müəyyən edilirsə, bu, o deməkdir ki, pensiya vermək istəmirlər. Buna görə də Azərbaycanda kişilərin pensiya yaşı 60-a endirilməlidir, qadınların isə daha aşağı - 58 yaşa salınmalıdır. Çünki bugünkü real həyat şərtləri bunu diktə edir".

**Partiya sədri söyləyib ki, bütün bu addımlar, guya orta ömür yaşının yüksəlməsi ilə əsaslandırılır:** "Deyirlər ki, insanların orta ömür yaşı Azərbaycanda 70-dir, 80-dir və s. Ancaq bunlar xəyali rəqəmlərdir, heç bir reallığa əsaslanmır. Bunlara istinad edib pensiya yaşını daha da qaldırmaq istəyirlər. Bunun da bir məqsədi var: büdcədən ödənişləri azaltmaq, büdcənin yükünü yüngülləşdirmək və dövlətin vətəndaş qarşısındakı öhdəliklərini minimuma endirmək. Amma əslində dövlətin işi bu deyil. Dövlətin işi vətəndaşın güzəranını, yaşayış şəraitini və rifahını yaxşılaşdırmaqdır. İnsan ömür boyu işləyir. Ən azından 60 yaşdan sonra rahat yaşaya bilməsi üçün pensiya yaşı aşağı salınmalıdır. Ümumiyyətlə, pensiya məbləğinin özü də gülməlidir. Bu isə başqa bir dərddir. Son zamanlar iqtidarın bütün addımları büdcə vəsaitinin qorunmasına xidmət edir, vətəndaşların maraqlarına yox. Biz görmüşük ki, dünyanın hər yerində büdcə vətəndaşa xidmət edir. Amma bizdə, təəssüf ki, məmurların yanaşmasına görə insan büdcəyə xidmət edir. İstər cərimələr olsun, istər sosial yardımlar, istərsə də pensiyalar büdcə xərclərinin azaldılmasına, insanların vəziyyətinin isə daha da ağırlaşmasına xidmət edən qərarlardır".

**Nihat**

# At ətini dana əti adı ilə satırlar

## **Eyyub Hüseynov:** "Ətin rənginə və qoxusuna diqqət edin. Qiymə şəklində satılan ətdə saxtakarlığı aşkar etmək çətindir"



**7500 restoran və kafedə monitorinq aparılıb, 626 müəssisədə yararsız ət aşkarlanıb. Bu barədə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli "Trend" İnformasiya Agentliyinə və "Xəzər" TV-yə birgə müsahibəsində deyib. Onun sölərinə görə, bu yoxlamalar zamanı 626 halda baytarlıq-sanitariya ekspertizasından keçməyən və mənşəyi məlum olmayan ətlər, o cümlədən at əti aşkarlanıb. Yararsız ətlər dövriyyədən kənarlaşdırılıb.**

AQTA sədrinin bu açıqlaması "at əti yeyilə bilərmi?" sualını yenə gündəmə gətirib.

**Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov "Şərq"ə açıqlamasında bildirdi ki, məsələ hansısa restoranda at ətindən yemək hazırlanmasında deyil, problem at və ya başqa hər hansı heyvanın ətinin dana, mal əti adı altında istehlakçıya təqdim olunmasıdır:**

- Bu o deməkdir ki, istehlakçı aldadılır. Əgər at ətini öz adıyla təqdim etsələr, bildirsələr ki, menyuda at ətindən hazırlanmış xörək var, kim arzu edirsə, hazırlayaq, təqdim edək, bu, başqa məsələ. Amma sahibkar at ətinə ölkəmizdə, əhali arasında tələbat olmadığını, əksəriyyətin at ətindən imtina edəcəyini bildiyinə görə, onu başqa ad altında təqdim edirlər. İstehlakçını aldadırlar, istehlakçı hüququnu pozurlar.

**E.Hüseynov bildirdi ki, at əti də qida üçün yararlıdır. Bu ətdən Orta və Uzaq Asiya ölkələrində geniş istifadə olunur:**

- Məlumdur ki, Türküstan, Monqulustan, Çində at əti yeyilir. Bu ölkələrdə at əti əsas qida məhsullarından hesab olunur. Amma Azərbaycan cəmiyyəti üçün at əti yaddır. Bizim milli mətbəximizdə at əti olmayıb. İndi də yoxdur. Hamımız islam dininə mənsubuq, türk əsilliyik, amma adətlərimizdə, mətbəximizdə fərqlər var. At əti açıq satışda olsa, bəlkə kimsə alacaq, istifadə edəcək. Amma açıq satışa çıxarılmır, inanmıram ki, kimsə sağlam atı kəsib ətini satışa çıxarsın. Böyük ehtimalla xəstə, qocalmış atlar olur. Kim belə əti könüllü alar? Bunu bilən işbazlar, möhtəkirlər at ətini dana - mal əti adı altında restoranlara verirlər. Restoran sahibi olan şəxs illərdir bu sektordadırsa, dana ətini at ətindən fərqləndirməyi bacarmalıdır. Bəlkə də bilərəkdən ucuz və keyfiyyətsiz ət alır, ona müxtəlif ədviyyatlar qataraq dadını süni şəkildə dəyişir və müştəriyə təqdim edirlər.

**E.Hüseynov qeyd etdi ki, saxta və ya mənşəyi məlum olmayan əti əsl mal ətindən ayırmaq üçün rənginə, piy qatına, lif quruluşu və qoxusuna diqqət edilməlidir:**

- Əsl mal əti parlaq qırmızı və ya açıq qırmızı rəngdə olur. Saxta ətlər isə mal ətinə nisbətən xeyli tünd, qonur və ya qaraciyərə bənzər tünd qırmızı rəngdə olur. Əsl mal ətinin üzərindəki piy qatı ağ və ya yüngül krem rəngində, bərk quruluşludur. Saxta ətlərdə isə piy sarımtıl, yumşaq, parlaq və yapışqanlı olur. Əsl mal ətində əzələ lifləri daha incə, yumşaq və nizamlı, saxta ətlərdə isə əzələ lifləri çox qalın, kobud və bərk olur. Mal əti özünəməxsus xoş, neytral çiy ət qoxusuna malikdir. At və ya eşşək əti isə şirintəhər və bir qədər acı qoxu verir. Bu qoxu xüsusilə ət bişirilən zaman köpüklənmə ilə birlikdə daha kəskin şəkildə üzə çıxır. Bir də, vətəndaşlarımız çalışsınlar ki, əti qiymə, hazır çəkilmiş formada deyil, tikə, sümüklü halda alsınlar. Çəkilmiş ətdə fərqi ayırd etmək çətindir.

**Məlahət Rzayeva**





# Nazir və müavinləri kənddən, təsərrüfatdan xəbərsizdirlər

## “Kombaynda şəkil çəkdirməklə kənd təsərrüfatı inkişaf etmir”

**Son zamanlar satıcı və istehlakçıların sosial mediada yeşik-yeşik meyvələri zibilliyə tulladığının şahidi oluruq. Xüsusilə də, Xaçmazın Pirquluoba kəndində gilasların çölə tökülməsini əks etdirən görüntülər cəmiyyətin etirazına tuş gəlib.**

Səbəb kimi bazarda alıcının olmaması göstərilir. Paytaxtdakı bazar və marketlərdə isə 4-5 manatdan ucuz gilas tapmaq, samanlıqda iynə axtarmağa çevrilib. Sezonla əlaqədar əhalinin mürəbbə bişirdiyini də nəzərə alsaq, zibilə tullanan meyvələrin narazılıqla qarşılanması qaçılmazdır.

**Mövzu ilə bağlı kənd təsərrüfatı üzrə ekspert Vahid Məhərrəmov ”Şərq”ə bildirib ki, Azərbaycanda hər il tonlarla meyvə və tərəvəz çaya və küçələrə tökülür:** “Bizim istehsalçılar xalqa yox, xaricdən gələn gəlirlərə önəm verirlər. Məhsullar arasında çeşidləmə prosesi aparılır. Yüksək keyfiyyətli məhsulu xarici ölkələrə, xüsusilə də Rusiyaya ixrac edirlər. Nisbətən aşağı keyfiyyətli məhsullar rayon və yol kənarı ticarət obyektlərində satılır. Satış üçün yararsız hesab edilən, xarab olmuş meyvələr isə çeşidlənərək çaya və ya tullantı poliqonlarına atılır. Bu, hər il bütün ölkə üzrə adət halına çevrilmiş prosesdir. Xarab məhsulun da alıcısı olmur. Kənd təsərrüfatı olduqca mürəkkəb prosesdir. Bu sahədə istehsal prosesi hava və iqlim şəraitindən asılıdır”.

**Mütəxəssisin fikrincə, hökumət istehsalçılara subsidiya verməsə, digər ölkələrdən daha çox məhsul idxal etmək məcburiyyətində qalacağıq:** “Bununla da, daxili bazar tamamilə çökəcək. Fermerlərə yalnız subsidiya ayırmaqla kifayətlənmək olmaz. İstehsalçılar hazırda, keyfiyyətli toxum və suvarma suyu ilə təminatda problemlə qarşılaşırlar. Halbuki, toxum səpilmiş sahələr vaxtında suvarılmalıdır. Özünü qabarıq şəkildə göstərən əsas problem texnika və avadanlıq qıtlığı ilə bağlıdır. Məhsulun xarab olmasının qarşısını almaq və daxili bioloji/kimyəvi proseslərin inkişafını dayandırmaq məqsədilə, dərhal soyuducu anbarlara yığılmalıdır. Anbar çatışmazlığı da məhsulların xarab olmasına gətirib çıxarır”.

**Vahid Məhərrəmov: “Fermerlər problemlərlə təkbətək qalıb, aqrar sahədə dağınıqlıq hökm sürür"**

**Ekspertin sözlərinə görə, fermerlərin qarşılaşdığı çətinlikləri saymaqla bitməz:** “Bunları yalnız hökumətin köməyi əsasında həll etmək mümkündür. Aqrar sektordakı böhranın kökündə dayanan əsas səbəb, bazarların monopolistlərin əlində olmasıdır. Kəndli özü istehsal etdiyi məhsulu bazara çıxara bilmir. Ölkə əhalisinin alıcılıq qabiliyyəti də aşağıdır. Bu da istehsalçının yükünü ağırlaşdırır. İstehsalı artırmaq ambisiyası real alıcı potensialı ilə üst-üstə düşmür. Çünki istehlakçıların əməkhaqqı artmır, işsizlik səviyyəsi isə pik həddə çatıb. Kiçik detal kimi görünən bu itkilər və bazar qüsurları, kənd təsərrüfatının onurğa sütununu sındırır. Fermer və kəndli istehsal etdiyi məhsulun heç olmazsa əsas hissəsini sata bilmədikdə, ziyana düşür. Əfsuslar olsun ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və satışı ilə məşğul olanların 90 faizinin bu sahə üzrə nə bilikləri, nə də təcrübələri var”.

**V.Məhərrəmov qeyd edib ki, son dərəcə mürəkkəb sahədə az təcürbə və biliyə sahib fermerlərimiz, onlardan asılı olmayan problemlərlə mücadilə aparmaq məcburiyyətində qalıb:** “Faktiki olaraq kənd təsərrüfatı sahəsində dağınıqlıq var. Çünki bu sahəyə məsul olanların özü aqrar sektordan uzaq adamlardır. Kənd təsərrüfatı naziri və onun müavinləri kənd təsərrüfatı üzrə mütəxəssis deyillər. Onlar şəhərdə böyüyüblər, kənddən və təsərrüfatdan zərrə qədər anlayışları yoxdur. Təməl biliklərə malik olmayan şəxs, 100 ildə eyni sahədə çalışsa, lazımi biliyə nail ola bilməyəcək. Sanki yuxu görürlər. Necə nazir və müavin olduqlarını belə xatırlamırlar. Amma Azərbaycana havada uçan yox, torpağa bitkiyə bələd olan mütəxəssis lazımdır. Hər dəfə gedib kombaynda oturub, maşını idarə edir, buğda biçir və şəkil çəkdirirlər. Bununla da guya təsərrüfata maraq göstərdiklərini nümayiş etdirirlər. Halbuki toxunduqları bitkinin və oturduqları maşının nə işə yaradığından xəbərləri yoxdur”.

**Aybəniz Səfərova**

# Dəmiryol Vağzalında "Kitab Dayanacağı" təqdirəlayiqdir

## Azərbaycanda belə təşəbbüslərin genişlənməsi cəmiyyətin intellektual inkişafına müsbət təsir göstərə bilər




**”Azərbaycan Dəmir Yolları” QSC (ADY) Bakı Dəmiryol Vağzalında ”Kitab Dayanacağı” layihəsinə start verib. Bu barədə ADY məlumat yayıb. Məlumata görə, layihə sərnişinlərin gözləmə və səfər vaxtını daha maraqlı, faydalı və mənalı keçirməsi məqsədilə həyata keçirilir.**

Bildirilib ki, Bakı Dəmiryol Vağzalının gözləmə zalında fəaliyyət göstərən ”Kitab Dayanacağı”nda müxtəlif dillərdə və janrlarda təqdim olunan kitablardan qeydiyyat və ödəniş etmədən istifadə etmək mümkündür. Sərnişinlər kitabı gözləmə zalında və ya səfər zamanı oxuya, daha sonra isə digər oxucuların da faydalanması üçün onu yenidən ”Kitab Dayanacağı”na və ya qatar bələdçisinə təhvil verə bilərlər. ADY oxucuları layihəyə töhfə verməyə dəvət edib. Belə ki, vətəndaşlar oxuduqları və başqalarına tövsiyə etdikləri kitabları Bakı Dəmiryol Vağzalındakı Məlumat Mərkəzinə təhvil verməklə və ya qurumla birbaşa əlaqə saxlayaraq layihəyə əlavə edə bilərlər. Qurum kitabların hər kəs üçün nəzərdə tutulduğunu vurğulayaraq, sərnişinləri onlara qayğı ilə yanaşmağa və növbəti oxucular üçün qoruyub saxlamağa çağırıb.

**”Qanun” Nəşriyyatının direktoru Şahbaz Xuduoğlu “Şərq”ə bildirib ki, Dəmiryol Vağzalında “Kitab Dayanacağı” kimi layihənin həyata keçirilməsi həm maarifləndirici, həm də sosial baxımdan olduqca vacib təşəbbüsdür:** “Dəmiryol Vağzalında belə bir layihənin həyata keçirilməsi təqdirəlayiqdir. Bu, çox müsbət və faydalı addımdır. Dünyanın bir çox ölkəsində ictimai məkanlarda kitab guşələrinin yaradılması insanların mütaliəyə marağının artırılması baxımından uğurlu nəticələr verir. Azərbaycanda da belə təşəbbüslərin genişlənməsi cəmiyyətin intellektual inkişafına müsbət təsir göstərə bilər.

İnsanlar gündəlik həyatın sürətli ritmi səbəbindən bəzən kitaba vaxt ayırmaqda çətinlik çəkirlər. Vağzal kimi insanların daha çox gözləmə vaxtı keçirdiyi məkanlarda kitabların əlçatan olması mütaliənin təşviqi baxımından çox önəmlidir. Bu, xüsusilə gənclərin və uşaqların kitaba marağının formalaşmasına stimul verə bilər”.

**Ş.Xuduoğlu qeyd edib ki, belə layihələrin uğuru və uzunömürlü olması cəmiyyətin münasibətindən asılıdır:** “Layihənin keyfiyyəti və davamlılığı da məhz onun uzunömürlü olması ilə ölçüləcək. Əgər insanlar kitablara qayğı ilə yanaşsa, oxuduqları kitabları geri qaytarsa və layihəyə yeni kitablarla dəstək versə, “Kitab Dayanacağı” uzun müddət fəaliyyət göstərə bilər. Çox istərdim ki, bu təşəbbüs təkcə Bakı Dəmiryol Vağzalı ilə məhdudlaşmasın. Gələcəkdə digər vağzallarda, metro stansiyalarında, hava limanlarında və müxtəlif ictimai məkanlarda da oxşar layihələr həyata keçirilsin. Çünki kitab oxuyan cəmiyyət həm düşüncə, həm də mədəniyyət baxımından daha güclü olur”.

**Şəymən Bayramova**

# İdmanla enerji içkisi əks qütblərdə dayanır

## Şahvələd Məmmədov çağırış edir ki, gəncləri təhlükəyə sürükləyən reklamlar dayandırılsın



**Milli Məclisin iclasında İctimai birliklər və dini qurumlar komitəsinin sədri Fazil Mustafa idman yarışları zamanı enerji içkilərinin reklam edilməsinin sağlam həyat tərzi ilə tərs-mütənasib olduğunu deyib:** ”Artıq müşahidə edirik ki, idman yarışlarının sağlam həyat tərzini təbliğ edən fəlsəfəsi ilə yanaşı, bəzən enerji içkilərinin reklamı da aparılır. Halbuki enerji içkilərinin təbliği müəyyən hallarda idmanın öz mahiyyətinə və sağlamlıq prinsiplərinə zidd görünə bilər. Əgər bu cür reklamlar vasitəsilə hansısa kommersiya maraqları ön plana çıxarılırsa, nəticədə dövlət siyasətinin əsas istiqamətlərindən biri olan sağlam həyat tərzinin təşviqi müəyyən risklərlə üzləşə bilər”.

Enerji içkilərinin insan orqanizminə ziyanından illərdir deyilir. Mütəxəssislər bu içkilərin zərərindən danışır, vətəndaşlara tövsiyələrini verirlər. Lakin yenə də insanlar bu zərərli içkidən əl çəkmir. Xüsusən, yeniyetmə və gənclərin enerji içkilərinə aludə olmasının gələcək sağlam həyatlarını təhdid etməsi gerçəyi görməzdən gəlinir. Xatırladaq ki, bir müddət əvvəl Ombudsman Aparatı da bununla bağlı məlumat paylaşmışdı. Məlumatda qeyd edilirdi ki, son illər Azərbaycanda energetik içkilərin istehlakı artıb, bu halın xüsusilə uşaqlar arasında geniş yayılması onların sağlamlıq hüququnun təmini baxımından ciddi narahatlıq yaradır. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) müstəqil monitorinq mexanizmi fəaliyyəti çərçivəsində ictimai yerlərdə, eləcə də təhsil müəssisələrinin ətrafında aparılmış monitorinqlər nəticəsində energetik içkilərdən yetkinlik yaşına çatmayan şəxslərin istifadəsinin sistemli xarakter aldığı, bu içkilərin satışı prosesində yaş məhdudiyyətinə nəzarətin kifayət qədər olmadığı, xüsusilə vending aparatları (avtomat satış aparatları) və pərakəndə satış obyektlərində yaşa nəzarət mexanizmlərinin faktiki tətbiq olunmadığı müşahidə edilir. Zərərli içkinin bu şəkildə asanlıqla əldə edilməsi yeniyetmələrin sağlamlığına ciddi təhlükədir. Ombudsman Aparatı hesab edir ki, energetik içkilərin yetkinlik yaşına çatmayan şəxslərə satılmasına görə nəzərdə tutulmuş inzibati cərimələr artırılmalı, vendinq aparatlarında energetik içkilərin satışına yaş identifikasiyası mexanizmləri tətbiq edilməli, həmin içkilərin reklamına dair məhdudiyyətlər gücləndirilməli, bu sahədə məlumatlılıq artırılmalıdır.

**Enerji içkilərinin insan orqanizminə ziyanından danışan həkim-terapevt Şahvələd Məmmədov “Şərq”ə açıqlamasında qeyd etdi ki, sağlamlığın rəhni sayılan idmanla enerji içkisi əks qütblərdə dayanırlar:**

- Necə ola bilər ki, insan həm idmanla məşğul olsun, həm də enerji içkisi qəbul etsin? Bu, ağlasığmazdır. Bunlar bir-birini təkzib edən, əks qütblərdə dayanan bir-birinə zidd məsələlərdir. İdman sağlam orqanizmə sahib olmağın əsas yollarından biridir, sağlam qidalanma, sağlam həyat tərzi ilə birlikdə. Burada enerji içkilərinə yer yoxdur. Heç 3-cü, 4-cü, 5-ci dərəcəli vasitə də deyil. Enerji içkiləri ürək ritmində pozulmalar, təzyiq, damarlarda sıxılmalar yaradır. Bu içkilərin təsirindən daha çox ürəkdə ölümcül ritm pozğunluqları baş verir. Enerji içkiləri bunlarla yanaşı, qadın və kişi cinsi orqanlarına mənfi təsir edir, nəsil artırma qabiliyyətini pozur, həmçinin genetik problemlərə səbəb olur. Bu içkilərin ziyanını saymaqla bitmir. Onların tərkibində yüksək miqdarda kofein, taurin maddəsi olur. Bu maddələr ürək ritmini pozur, hüceyrələrin artıq impulslardan oyanması baş verir və ürəkdə ciddi problemlər, ölümcül aritmiyalar, damar tutulmaları, spazmlar yaranır. Qara ciyərdə, mədədə problemlər yaranır. Enerji içkiləri D vitamininin mənimsənilməsinin də qarşısını alır, vitamin çatışmazlığı yaranır. Ziyanlar bir deyil, iki deyil, çoxdur. Xüsusən erkən yaşlarda, yeniyetməlik dövründə sağlam qidalanmağa çalışılmalıdır ki, orqanizm güclənsin, düzgün inkişaf etsin. İdman yarışlarında enerji içkilərinin reklamı isə tamamilə non-sensdir.

**Ş.Məmmədov bildirdi ki, idman yarışlarının iştirakçıları və izləyiciləri əsasən yeniyetmə və gənclər olduğundan enerji içkilərinin reklamı onları buna daha da həvəsləndirə bilər. Bunun qarşısı alınmalıdır:**

- Hesab edirəm ki, enerji içkilərinin satışına yaş məhdudiyyəti qoyulmalı, tədris müəssisələrinin önündə satışına icazə verilməməli, reklamı, təbliğatı qadağan edilməlidir. Yeniyetmə, gənclərdən söhbət gedirsə, orqanizm hələ də tam formalaşmayıb, inkişaf davam edir. Orqanizmin inkişaf mərhələsində zərərli qidalar və içkilər qəbul etmək orqanizm üçün böyük tFəhlükədir və ağır fəsadlar yaradacaq.

**Məlahət Rzayeva**

# Azərbaycanlılar ucuz biletlər üçün Kutaisiyə üz tuturlar

## Bu məsələ AZAL rəhbərliyinin də xüsusi diqqət mərkəzindədir və onlar da bunun bazarda yaratdığı rəqabət üstünlüyünün fərqindədirlər




**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında İctimai Şura üzvlərinin AZAL rəhbərliyi ilə görüşü olub. Görüş zamanı bir çox məsələlər, o cümlədən təyyarə reyslərinin qiyməti də müzakirə edilib. Bu barədə məlumat verən Multimedia Mərkəzinin direktoru, Azərbaycan İnternet Forumunun prezidenti və RİNN yanında İctimai Şuranın üzvü Osman Gündüz bildirdi ki, görüş kifayət qədər açıq və səmimi mühitdə keçib. Şura üzvləri tərəfindən çoxsaylı suallar səsləndirilib və AZAL rəhbərliyi bütün sualları böyük səbir və hövsələ ilə cavablandırmağa çalışıb:**

- Bununla yanaşı, etiraf etməliyik ki, vətəndaşı daha çox maraqlandıran məsələ yeni təyyarələrin sayı deyil, uçuşların əlçatanlığı, qiyməti və xidmətin keyfiyyətidir. Əslində, ölkəmizdə bəzi istiqamətlər üzrə sərnişin qatarlarının biletlərinin qiyməti artıq təyyarə biletlərinə yaxınlaşdığından, hətta bəzi hallarda onları üstələdiyindən aviabiletlərin qiyməti mövzusunu elə də sərt şəkildə qabartmağa ”ürəyim gəlmədi”. Bununla belə, mənim qaldırdığım əsas məsələlər bunlar oldu:

- Aviabiletlərin qiymətlərinin region ölkələri ilə müqayisədə yüksək olması və bunun Azərbaycanın rəqabət qabiliyyətinə təsiri;
- Gürcüstanın Kutaisi hava limanının region əsas aşağıbüdcəli aviasiya mərkəzinə çevrilməsi, region sərnişinlərinin daha münasib qiymətlərə görə məhz oradan uçmağa üstünlük verməsi və ölkəmizdə aşağıbüdcəli (low-cost) aviaşirkətlərin fəaliyyətini məhdudlaşdıran amillərin olubolmaması;
- Böyük dövlət investisiyaları hesabına tikilmiş Zaqatala, Lənkəran, Qəbələ, Şəki və digər regional hava limanlarına müntəzəm daxili reyslərin olmaması;
- Hava limanlarında parkinq qiymətlərinin yüksək olması, sərnişinlərin taksi seçimi imkanlarının məhdudlaşması və bunun qiymətlərə təsiri;
- Müştəri məmnuniyyəti göstəricilərinin və sərnişin şikayətləri üzrə statistik məlumatların müntəzəm olaraq ictimaiyyətə açıqlanması, şəffaflıq və hesabatlılıq.

### Regional hava limanları xarici operatorlara verilə bilər

**AZAL prezidenti Samir Rzayev bəzi mühüm məqamlara da toxundu və bu məsələlər ətrafında açıq müzakirə aparıldı.**

O bildirdi ki, regional hava limanlarının xarici operatorların idarəçiliyinə verilməsi variantı nəzərdən keçirilir. Eyni zamanda, hava limanlarının idarə edilməsi ilə aviaşirkətin fəaliyyətinin institusional olaraq ayrılması məsələsi də müzakirə olunur.

Məlumat üçün qeyd edim ki, Kutaisi hava limanı mövzusu görüş ərzində dəfələrlə gündəmə gəldi. Belə qənaətə gəldim ki, bu məsələ AZAL rəhbərliyinin də xüsusi diqqət mərkəzindədir və onlar da bunun bazarda yaratdığı rəqabət üstünlüyünün fərqindədirlər.

Düşünürəm və müzakirə nəticəsində məndə belə bir fikir fromalaşdı ki , AZAL rəhbərliyi tərəfindən planlaşdırılan islahatlar ardıcıl və düzgün həyata keçirilərsə, həm rəqabət mühiti güclənər, həm də sərnişinlər daha keyfiyyətli və münasib qiymətli xidmətlərdən faydalana biləcəklər.

Azərbaycanın müasir hava limanları var. Bura böyük yatırımlar edilib. İndi əsas məqsəd həmin infrastrukturdan daha səmərəli istifadə etmək, regional hava limanlarını canlandırmaq, rəqabəti artırmaq və vətəndaşın daha münasib qiymətə, daha rahat uçmasına nail olmaqdır.

**Məlahət**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı



# Mütəxəssislər ciddi dəyişiklik tələb edirlər

## Uşaq bağçalarında qida normaları təcili yenilənməlidir

**Məktəbəqədər təhsil müəssisələri - uşaq bağçaları və orta məktəblərdə qidalanmanın təşkili uşaqların sağlam inkişafında xüsusi əhəmiyyət daşıyır.**

Sevindirici haldır ki, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi bu müəssisələrdə vaxtaşırı monitorinqlər aparır, nöqsanlar aşkarlandıqda onların aradan qaldırılması istiqamətində lazımi addımlar atılır. AQTA sədri Qoşqar Təhməzli yerli mediaya müsahibəsində, xüsusən özəl bağçalarda qidalanma ilə bağlı vəziyyətin ürəkaçan olmadığını deyib. Məktəb və uşaq bağçalarında qida zəhərlənmələrinin qarşısının alınması üçün həyata keçirilən tədbirlərdən danışan AQTA sədri deyib ki, özəl bağçaların səksən faizdən çoxunda aparılmış nəzarət tədbirləri zamanı ciddi nöqsanlar aşkar edilib: "Məktəb və bağçalarda qida təhlükəsizliyi sahəsində Elm və Təhsil Nazirliyi ilə sıx əməkdaşlıq edirik. Həm məktəbəqədər təhsil müəssisələrində, həm də ümumi təhsil müəssisələrində tərəfimizdən mütəmadi monitorinqlər aparılır. Həm məktəblərdə, həm də məktəbəqədər təhsil müəssisələrində tərəfimizdən geniş maarifləndirmə işləri həyata keçirilir. Həmin müəssisələrdə qida təhlükəsizliyi və keyfiyyətə nəzarət üzrə məsul şəxslər müəyyən edilib, onlara müvafiq təlimlər keçirilib və qida təhlükəsizliyi ilə bağlı zəruri təlimatlar verilib. Təəssüflər olsun ki, özəl uşaq bağçalarında qidalanma ilə əlaqədar vəziyyət ürəkaçan deyil. Özəl bağçaların səksən faizdən çoxunda aparılmış nəzarət tədbirləri zamanı ciddi nöqsanlar aşkar edilib. Daha dəqiq desək, yoxlanılan 107 uşaq müəssisəsinin 88-də müxtəlif qanun pozuntuları müəyyən olunub". Aşkar edilmiş nöqsanlar arasında istifadə müddəti bitmiş ərzaq məhsullarından istifadə, qida məhsullarının saxlanma rejiminə düzgün əməl olunmaması, qida məhsullarının saxtalaşdırılması halları, eləcə də kərə yağı adı altında bitki mənşəli yağların uşaqlara təqdim edilməsi kimi ciddi pozuntular var. Bundan əlavə, müəssisələrdə sanitar-gigiyenik və sanitar-texniki vəziyyətlə bağlı da ciddi çatışmazlıqlar qeydə alınıb.

Xatırladaq ki, tibb və təhsil müəssisələri, sosial sahəyə aid müəssisələrdə - uşaq bağçalarında qida normalarının yenilənməsinin hüquqi əsası yaradılması və yeni qida normalarının müəyyən edilməsi məqsədilə "Yaşayış minimumu haqqında" qanuna dəyişiklik edilməsi barədə qanun layihəsi hazırlanıb. Layihəyə əsasən, minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibi əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən tibb müəssisələrində, təhsil müəssisələrində və sosial sahəyə aid müəssisələrdə şəxslərin qida normaları müəyyən edilib. Adıçəkilən müəssisələrdə istifadəsi məqsədəuyğun olan qida məhsullarının çeşidliliyinin minimum istehlak səbətinin qida məhsulları üzrə tərkibinə uyğunlaşdırılmasına, həmçinin müxtəlif növ xəstəliklərin müalicə metodikasından irəli gələrək tibb müəssisələrində yeni qida normalarının müəyyən edilməsinə ehtiyac yaranıb. Məsələ təhsil müəssisələrini də əhatə etdiyindən xüsusilə vacib görünür. Uşaq bağçaları, orta məktəb bufetlərində, həmçinin uşaq evləri, internat məktəbləri, sosial sığınacaqlarda gündəlik yemək norması günün tələbinə uyğunlaşdırılmalıdır.

**Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında qeyd etdi ki, AQTA-nın keçirdiyi yoxlamalar alqışlanmalıdır. Uşaqların düzgün qidalanması təşkil edilməlidir. Qida normalarının yenilənməsi isə zəruridir:**

### Pediatr: "Bağçalarda eyni qidalar uşaqların sağlamlığına mənfi təsir edir"

- Bağçada uşaqlara qarabaşaq və makaron, üstündə də toyuq filesi verilir. Bundan savayı başqa bir ərzaq yoxdur. Qarabaşaq diyetik qidadır. Mədə-bağırsaq üçün faydalıdır. Toyuq əti də yüngüldür, tərkibində B qrupu vitaminləri, zülal, minerallar, müəyyən miqdarda yağlar var. Amma uşaq həmişə eyni qidanı yeməməlidir. Başqa qidalar da yeyilməlidir, müxtəlif vitaminlər, zülalla zəngin qidalar. Uşaqların sağlam böyüməsi, orqanizmin möhkəmlənməsi, əzələ bərkliyi üçün müəyyən qidalar var ki, uşaq onları mütləq qəbul etməlidir. Həftənin 5 günü səhərdən axşamadək uşaqlar bağçanın ixtiyarındadır. Ancaq şənbə-bazar günləri, bayramlarda evdə olurlar. Bir-iki gün evdə normal qidalanma ilə uşağın orqanizmi möhkəmlənməz. Bu, mütəmadi, hər gün olmalıdır. Məsələ bundadır ki, uşaqlar bağçada qarabaşaq, makarona o qədər vərdiş edir ki, evdə başqa yeməklərdən imtina edirlər. İndiyədək qüvvədə olan istehlak səbəti üzrə ərzaqlara baxanda görürük ki, məsələn, 0-15 yaş arası uşaqlar üçün ət və ət məhsullarının illik norması 29.6 kiloqramdır. Bu, ay ərzində 2 kiloqram ət deməkdir. 365 günün hər birinə təxminən cəmi 12 qram ət düşür. 2 kiloqram ət 30 gün ərzində yeyilməlidir. Bu, o deməkdir ki, uşaq ayda cəmi 2 kiloqram ət yeyəcək. Düzdür, bu, minimum göstəricidir. Amma maksimumun nə qədər olduğunu necə bilək? Uşaq bağçaları aylıq nə qədər ərzaq alır və bu ərzağın içində ətin ümumi çəkisi nə qədərdir? Məsələn, meyvənin illik miqdarı 76 kiloqram göstərilib, əvvəlki istehlak səbətində. Bununla hər uşağa gündə 5-6 qram meyvə düşür. Bu meyvənin hansı meyvələrdən nədən ibarət olduğu bilinmir. Hər uşaq hər gün azı 1 alma, 1 kök, müxtəlif tərəvəzlər yeməlidir. Sağlam olmaq üçün. Verilirmi bu uşaqlara? Balıq məhsullarının çəkisi lap azdır. Halbuki məhz balıq məhsulları orqanizmin zəruri ehtiyacı olan D vitamininin daşıyıcılarıdır. Məktəblərdə, digər uşaq müəssisələrində də, o cümlədən qida normalarının yenilənməsinə ehtiyac var. Nəzərə almaq lazımdır ki, hazırda qidaların tərkibi vitaminlərlə zəngin deyil. Uşaqlara məhz vitaminlərlə zəngin qidalar verilməlidir.

### Ağa Salamov: "Uşaq müəssisələrində təsadüfi şəxslər aşbaz işləməməlidir"

**Qida məsələləri üzrə ekspert Ağa Salamov da "Şərq"ə açıqlamasında bildirdi ki, uşaqlar bizim gələcəyimizdir deyiriksə, onların sağlam qidalanması təmin olunmalıdır və hər bir müəssisə qaydalara, normalara əməl etməlidir:**

- Qida təhlükəsizliyi, ərzaqların saxlanma şəraiti, xörəklərin bişirilmə texnologiyası, hansı yeməyin uşaqlara nə zaman verilməsi, qidalar arasındakı uyğunluq, bütün bunlar qida elmidir və uşaq müəssisəsində çalışanlar bu qaydaları bilməlidir. Uşağa qidanı yalnız qarnı doysun deyə verməməlidirlər. Uşağın qidalanması elə olmalıdır ki, faydalı olsun, inkişafına xidmət etsin, mədə-bağırsaq pozuntusu yaratmasın, uşağın boy artımı, görmə qabiliyyəti, hemoqlobin yüksəlməsi, bağırsaq florası üçün, ümumən sağlam inkişafına xidmət etmiş olsun. Menyunun tərtibatı əsasdır. Bağçalarda gün ərzində 5 vaxt qidalanma və ara qidalar düzgün şəkildə planlaşdırılmalıdır. Rasiona mütləq balıq, ət və toyuq əti daxil edilməlidir. Paxlalılar, düyü, qarabaşaq və tərəvəzlərdən istifadə olunmalıdır. Vitamin dəstəyi üçün uşaqlara mütləq mövsümi meyvə və tərəvəzlər verilməlidir. Tərbiyəçilər yeməyi sadəcə uşağın qarşısına qoyub getməməli, onlarla ünsiyyət qurmalıdır. Yeməkdən əvvəl uşaqlara hansı qidaların faydalı olduğu və niyə tərəvəz-yarmaları yeməli olduqları başa salınmalıdır. Bir də ki, düzgün qidalanma vərdişləri bağçadan deyil, ilk olaraq evdən başlayır. Valideyn evdə uşağa qazlı içki, "fastfood", kartof qızartması verirsə, uşağın bağçada sağlam qidalanması effektiv olmayacaq.

**Mütəxəssis qeyd etdi ki, uşaq müəssisələrində təsadüfi şəxslər aşbaz işləməməlidir:**

- Söhbət uşaq müəssisəsindən gedirsə, burada xörəkləri hazırlamaq ixtisaslaşmış şəxslərə, aşbazlara həvalə edilməlidir. Təsadüfi şəxslər xörəyə hansı ərzağın nə qədər qatılmalı olduğunu, normativləri bilmirlər. Bunu xüsusi ixtisaslaşmış şəxslər bilir. Uşaq müəssisəsində sanitar normalara riayət edilməsinə də ciddi fikir verilməlidir. İşçilər, aşbazlar, xörək paylayanlar mütləq gigiyenik əlcəklərlə işləməli, saç hissəni xüsusi papaqla örtməli, əyinlərində təmiz az xalatlar olmalı, həmçinin sağlamlıq haqqında arayışları olmalıdır. Uşaq orqanizmi həssasdır. Adi bir bioloji çirklənmə uşaq orqanizmində ağır fəsadlara yol aça bilər.

**Mələhət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub




# Saxta nikahla ölkədə qalmaq istəyənləri deportasiya gözləyir

## Dövlət Miqrasiya Xidmətinin aidiyyəti strukturları bu cür halları kifayət qədər rahat şəkildə aşkarlayır

**Bir sıra ölkələrdə əcnəbilərlə bağlanan nikah əsasında müvəqqəti yaşama icazəsinin alınması qanunvericilikdə nəzərdə tutulan hüquqi əsaslardan biridir. Lakin son illərdə bu mexanizmdən sui-istifadə hallarının artması bir çox dövlətləri qanunvericiliyi sərtləşdirməyə və nəzarət mexanizmlərini gücləndirməyə sövq edib.**

Gürcüstanda xarici ölkə vətəndaşları ilə bağlı qanun düzəlişləri qüvvəyə minib. Bundan sonra yaşayış icazəsi almaq məqsədilə saxta nikaha daxil olan əcnəbi Gürcüstandan çıxarılacaq və 2 ildən 10 ilədək müddətə ölkəyə giriş qadağası qoyulacaq. Ölkəmizdə də bəzən bu cür hallara rast gəlinir.

**Millət vəkili Azər Allahverənov "Şərq"ə bildirib ki, dünyanın bir sıra dövlətlərində əcnəbilərlə bağlanan nikah hesabına həmin əcnəbinin bu və ya digər ölkədə müvəqqəti yaşama icazəsi alması praktikası geniş yayılıb:** "Hətta bəzi dövlətlərdə bu məsələ müəyyən mənada narahatlıq doğuracaq səviyyəyə gəlib çatıb. Çünki müəyyən olunub ki, son illərdə məhz bu üsulla müvəqqəti yaşama icazəsi almaq istəyən insanların sayı kəskin şəkildə artıb.

Bu məsələ bəzi sui-istifadələrə də yol açıb. Xüsusilə də qanunvericilikdə daha loyal, yaxud liberal prinsiplər mövcud olduğu hallarda bundan yararlanmaq istəyən şəxslərin sayı çox olub.

Xüsusilə də Gürcüstanda qanunvericiliyə dəyişiklik edilməsi və saxta nikah hallarında 2 ildən 10 ilədək müddətə ölkəyə girişin qadağan olunması məsələsi gündəmə gəlib. Məsələn, Rusiya ərazisində də bu yolla müvəqqəti yaşama icazəsi almağa çalışanların sayı kifayət qədər çox olub.

Bu səbəbdən də Rusiya hökuməti bu məsələdə daha sərt mövqe tutub. Hətta bəzi hallarda müəyyən daha radikal addımların atılması da maraq doğuran siyasi müzakirə mövzularından biridir".

**Parlamentari qeyd edib ki, bu əsasla müvəqqəti yaşama icazəsinin verilməsinin ümumiyyətlə qadağan edilməsinə dair də fikirlər səsləndirilir:** "Konkret olaraq bir sıra əsaslar var ki, onların əsasında müvəqqəti yaşama icazəsi almaq mümkündür. Həmin siyahıda olan müvafiq bəndin çıxarılmasının tərəfdarı olduqlarını bildirirlər.

Amma düzdür, müəyyən sərtləşmələr olsa da, nikaha daxil olan əcnəbinin həmin ölkə ərazisində müvəqqəti yaşama icazəsi almaq hüququ Rusiyada hələ də tanınır. Ancaq istənilən halda, əgər saxtakarlıq faktı aşkarlanarsa, bu, daha sərt cəzalara səbəb olur. Burada müvəqqəti yaşama icazəsinin ləğv olunması, deportasiya və digər tədbirlər nəzərdə tutulur.

Gürcüstanda da gedən son proseslər göstərir ki, böyük ehtimalla bu məsələ orada da kifayət qədər qabarıq şəkildə özünü göstərib. Nəticə etibarilə hökumət daha radikal addımlar atmağa məcbur olub".

**Deputat vurğulayıb ki, Azərbaycanla bağlı bu məsələyə münasibəti birmənalıdır:** "Əgər saxta nikah əsasında müvəqqəti yaşama icazəsi alınması faktı baş verirsə və bunun əsasında saxtakarlıq dayanırsa, mən bunun qəti əleyhinəyəm. Biz də hər zaman qanunsuz miqrasiya ilə mübarizə çərçivəsində həyata keçirdiyimiz maarifləndirmə tədbirlərində bunun yolverilməz olduğunu xüsusi olaraq bildiririk. Bu, mənim bu məsələyə münasibətimdir.

10-15 il bundan qabaq, mənim yadımdadır ki, belə faktlar olurdu və onları Dövlət Miqrasiya Xidməti aşkarlayırdı. Həmin faktlar aşkarlananda şəxsin müvəqqəti yaşama icazəsi ləğv olunurdu və həmin şəxs inzibati qaydada ölkə ərazisindən çıxarılırdı.

Təbii ki, bununla bağlı əlavə qərarlar da verilə bilərdi. Yəni ölkə ərazisinə girişə məhdudiyyət tətbiq oluna və ya şəxsin üzərində hansısa inzibati sanksiya olduğu hallarda digər tədbirlər də görülə bilərdi. Amma sonrakı mərhələdə mən saxta nikah üzərindən müvəqqəti yaşama icazəsi almağa çalışan şəxslərlə bağlı hər hansı bir məlumata rast gəlmədim.

Xüsusilə son illərin təcrübəsinə nəzər saldıqda əminliklə deyə bilərəm ki, pandemiyadan əvvəl artıq bir sıra preventiv mexanizmlər mövcud idi. Bundan Dövlət Miqrasiya Xidməti geniş şəkildə istifadə edirdi.

Bağlanan nikahın saxta olub-olmaması ilə bağlı qərar da məhz həmin mexanizmlər vasitəsilə aşkarlanan hallar əsasında verilirdi. Yəni əgər saxta nikaha daxil olma halları olurdusa, bu, həmin preventiv mexanizmlərin və görülən zəruri tədbirlərin nəticəsində üzə çıxarılırdı.

Nəticə etibarilə əcnəbilər bu üsulla müvəqqəti yaşama icazəsi almağın mümkün olmadığını gördükləri üçün bundan geniş istifadə etmədilər".

**Müsahibimiz vurğulayıb ki, Gürcüstanda, Rusiyada və digər ölkələrdə olduğu kimi Azərbaycanda da bu məsələnin kütləvi xarakter aldığı barədə danışmaq olar:** "İstisna deyil ki, kimsə yenə də bu üsula əl atsın. Amma düşünürəm ki, Dövlət Miqrasiya Xidmətinin aidiyyəti strukturları bu cür halları kifayət qədər rahat şəkildə aşkarlayırlar. Nəticə etibarilə şəxslə bağlı müvafiq qərar qəbul edilir.

Adətən əgər müvəqqəti yaşama icazəsi hələ verilməyibsə, əvvəlcə nikahın saxta olub-olmaması araşdırılır. Saxta olduğu müəyyən edilərsə, şəxsə müvəqqəti yaşama icazəsi verilmir. Əgər onun başqa hüquqi əsası da yoxdursa, həmin şəxsin ölkə ərazisindən çıxarılması barədə qərar qəbul olunur.

Əsas yanaşma budur. Gələcəkdə bununla bağlı hər hansı narahatlıq doğuran hallar yaranarsa və qanunvericilikdə dəyişiklik edilməsinin zəruri olduğu barədə təkliflər irəli sürülərsə, bu məsələyə yenidən baxıla bilər".

**Banuçiçək**




# Kitab yazır, rəsmlər çəkir, 3D oyun hazırlayır

## 10 yaşlı Fəridin böyük hədəfləri var

**Uşaqların xəyal dünyası bəzən böyüklərin təsəvvür edə bilmədiyi qədər rəngarəng və zəngin olur. Həmin dünyaya yaradıcılıq, zəhmət və əzm də əlavə olunanda ortaya maraqlı əsərlər çıxır. Cəmi 10 yaşı olan Fərid Teymurlu da bu yaşında adını "Fındıq və Budaq" qoyduğu ilk kitabını yazıb.**

Fərid deyir ki, yazmağa marağı hələ kiçik yaşlarından yaranıb. Kitablarla əhatə olunan mühitdə böyüməsi, ailəsinin yaradıcılığa verdiyi dəyər və zəngin təxəyyülü onu ilk hekayəsini qələmə almağa həvəsləndirib.

İlk kitabının yaranma hekayəsi, ilham aldığı mənbələr, qəhrəmanlarının xüsusiyyətləri, ailəsinin dəstəyi və gələcək planları haqqında Fəridlə söhbətləşdik.

**"Şərq" müsahibəni təqdim edir:**

**- Fərid, "Fındıq və Budaq" kitabını yazmaq fikri ağlına necə gəldi? Səni ən çox nə ilhamlandırdı?**

- Hekayəmi yazmağa başlayanda səkkiz yaşım vardı. Onu haçansa tamamlayıb çap etdirəcəyimi bilmirdim. Evimizdə babamın və nənəmin kitabları vardı. Mən o kitabların yazılma prosesini gördüm. Onlara baxıb mən də həvəsləndim.

**- "Fındıq və Budaq" çox maraqlı və fərqli addır. Niyə məhz bu adı seçdin? Fındıq və Budaq sənin üçün nəyi ifadə edir?**

- Çünki əsəri baş qəhrəmanların adı ilə adlandırmaq istədim. Rahat və yaddaqalan olsun deyə. Mənim üçün Fındıq və Budaq yaxşı dostluğun göstəricisi deməkdir.

**- Kitabı yazmağa nə qədər vaxt sərf etdin?**

- Bir il. Yazırdım, fasilə verirdim, sonra qayıdıb hekayəni redaktə edirdim.

**- Sən həm də "Botanikula" oyunundan ilhamlanmısan. Oyundakı hansı detalları nağılına köçürdün?**

- "Botanikula" oyunundan Fındıq və pis Hörümçək obrazlarını götürmüşəm. Amma oyunda başqa qəhrəmanlar da var idi və hekayə fərqli idi. Onlar sonuncu "Xeyir ağacı"nın toxumunu Hörümçəkdən xilas etməyə çalışırdılar. Mənim hekayəmdə isə əsas mövzu dostluqdur.

**- Kitab qəhrəmanlarının rəsmlərini də özün çəkmisən. Hansı qəhrəmanı çəkmək daha çətin oldu?**

- Rəsm çəkməyi çox sevirəm. Ona görə də illüstrasiyaları hazırlamaq mənim üçün çətin olmadı.

### Qulu Məhərrəmlinin nəvəsi: "Baba mənim kitab yazdığımı biləndə çox sevindi, amma dedi ki, redaktə işlərinə nənə baxır, çünki o, əla yazıçıdır"

**- Yazı ilə rəsm arasında qalsan hansını seçərdin və niyə?**

- Biri digərini tamamlayır, hərəsinin öz yeri var.

**- Yazı prosesində sənə ən çox kim dəstək oldu, ilk fikirlərini kiminlə paylaşdın?**

- Əsərimi yazarkən Türkiyədə tətildə idim. Zemfira nənəm yanımda idi. İlk dəstəyi mənə o verdi, sonra isə valideynlərim də mənə dəstək oldular.

**- Bəs baban kitabın ilk variantına baxıb?**

- İki babam var, Eyvaz babam mənim dərslərimə çox baxır, ana babam isə məşhur jurnalist Qulu Məhərrəmlidir. Mən böyüdükcə onunla çox yaxşı dil tapırıq. Baba mənim kitab yazdığımı biləndə çox sevindi, amma dedi ki, redaktə işlərinə nənə baxır, çünki o, əla yazıçıdır.

**- "Fındıq və Budaq" nağılının əsas qəhrəmanları necə xarakterə malikdirlər? Onların arasında sənə bənzəyən biri varmı?**

- Onlar haqqında köməksevər, yaxşı dostlar demək olar. Fındıq obrazını isə özümə bənzədirəm. Çünki mən də bir az inadkaram və çətinliklər qarşısında geri çəkilmirəm.

**- Sənin yaşındakı uşaqlar bu kitabı oxuyanda oradan özləri üçün hansı dərsi və ya mesajı götürəcəklər?**

- Yaxşılar bir olsa, hər zaman xeyir qalib gələr.

**- Artıq ilk kitabın çap olunub və sən gənc bir yazıçısan! Kitabını əlinə alanda hansı hissləri keçirdin?**

- Sevinirəm.. Valideynlərimin mənimlə qürur duymasına da çox sevinirəm.

**- Fındıq və Budağın macəraları davam edəcəkmi, yoxsa tamamilə yeni bir mövzuda yazmağı planlaşdırırsan?**

- Artıq yeni mövzu haqqında bəzi düşüncələrim var.

**- Gələcəkdə özünü peşəkar yazıçı kimi görürsən? Hansı peşədə çalışmaq istəyirsən?**

- Yazmaq hobbimdir. Mən gələcəkdə kompüter oyunları hazırlamaq və oyun tərtibatçısı olmaq arzusundayam. Hazırda 3D oyun qurmağı öyrənirəm.

**- Əgər kitabındakı qəhrəmanlardan biri ilə dost ola bilsəydin, kimi seçərdin?**

- Fındıq çox pozitivdir, onunla dost olmaq istərdim.

**- Görünən odur ki, sən kitab oxumağı da çox sevirsən. Ən sevdiyin qəhrəman, yazıçı kimdir?**

- A.Volkovun "Zümrüd şəhərinin sehirbazı" əsərini və Dəmir Odunçu obrazını çox xoşlayıram.

**- Sənin kimi öz kitabını yazmaq, rəsm çəkmək və ya nəsə yaratmaq istəyən, amma bəlkə də, çəkinən həmyaşıdlarına nə məsləhət görərdin?**

- Həmişə kreativ və yaradıcı olmaqdan çəkinməsinlər.

**- Oxucularına nə demək istəyirsən?**

- Hər xırda maneə və uğursuzluqlardan qorxmayın, hədəflərinizə doğru ürəklə gedin.

**P.S.** *Biz də Fəridə yaradıcılıq yolunda yeni uğurlara imza atmasını, gələcək planlarının gerçəkləşməsini və oxucularını yeni əsərlərlə sevindirməsini arzulayırıq!*

**Banuçiçək Kalbalıyeva**

# Təbrik edirik!



**Aytəkin xanım və Arzu bəyin ailə qurmasının 28-ci ildönümü tamam oldu.**

Bu əlamətdar gün münasibətilə övladları Nihat, Aytən və Rəna onları ürəkdən təbrik edir, möhkəm cansağlığı, uzun və xoşbəxt ömür, ailə səadəti, sevgi, bərəkət və firavanlıq arzulayırlar.

**Arzu edirlər ki, ailənin ocağı daim isti, süfrəsi bol, ömürləri isə sevinc və xoş günlərlə dolu olsun. Bir-birinizə olan sevgi və hörmətiniz həmişə olduğu kimi bundan sonra da davam etsin.**



**İyunun 30-da ailəmizin sevimli balası Zümranın 3 yaşı tamam oldu.**

Bu əlamətdar gün münasibətilə Zümranı əmisi Nihat, dayısı Məhəmməd, babaları Arzu və Rza, nənələri Aytən və Zəminə, xalaları Rəna və Aytən, eləcə də anası Nigar ürəkdən təbrik edir, ona sağlam, xoşbəxt, uzun ömür, firavan gələcək və ömrü boyu üzündən təbəssümün əskik olmamasını arzulayırlar. **Ad günün mübarək, əziz Zümra! Hər zaman sevinc, uğur və xoşbəxtlik içində böyüyəsən, arzuların gerçəkləşsin, yolun daim işıqlı olsun!**

### Elanlar

Mehdiyeva Gülsüm Heydər qızının adına verilmiş şəhidlik vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Məlikli Aysel Həsənağa qızına məxsus Xırdalan şəhəri, H.Əliyev prospekti 167 ünvanında yerləşən "AAAF park" yaşayış massivi, küçə 12, bina 7, mənzil 18-in alqı-satqı müqaviləsi, mənzilin texniki pasportu və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

AzTU nəzdində Bakı dövlət rabitə və nəqliyyat kollecinin tələbəsi Cəfərov Fərid Fuad oğlunun tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Azərbaycanda 100 Mbit/s internet artıq köhnəlir

## İstifadəçilər daha yüksək tariflərə keçəcək



**Azərbaycanda median sürətin 200 Mbit/s-in altında qalması narahatlıq doğurur. Mütəxəssislər hesab edir ki, median sürətin dəyişməsi labüddür. İnternet istifadəçilərinin gözləntisi məhz budur.**

İnformasiya-kommunikasiya məsələləri üzrə mütəxəssis Elvin Abbasov "Şərq"ə açıqlamasında qeyd etdi ki, bu məsələyə bir dəfə toxunulub artıq:

- 2005-2012-ci illərdə ADSL texnologiyası geniş yayılmışdı və istifadəçilərin böyük hissəsi 512 Kbit/s - 1 Mbit/s aralığında sürətlərlə internetə qoşulurdu. Həmin dövrdə internet istifadəsi əsasən sayt baxışı, e-poçt və sadə mesajlaşma ilə məhdudlaşdığı üçün 1 Mbit/s kifayət qədər rahat təcrübə təqdim edirdi. Lakin sonrakı dövrdə video streaminq, sosial media və bulud əsaslı xidmətlərin sürətli inkişafı bu sürət standartını qısa müddətdə köhnəlmiş səviyyəyə endirdi və istifadəçi gözləntilərini kəskin şəkildə dəyişdirdi. Məhz bu transformasiyanın nəticəsi olaraq, bir zamanlar ən geniş yayılmış seçim sayılan 30-50 Mbit/s aralığındakı paketlər də artıq keçid mərhələsinə çevrilib və abunəçilər daha yüksək sürətli tariflərə miqrasiya ediblər. Hazırda ölkədəki genişzolaqlı internet abunəçilərinin 65 faizi, yəni 1,5 milyonu 100 Mbit/s ilə 1 Gbit/s arasında sürət paketlərindən istifadə edir. 1 Gbit/s və üzəri paket istifadəçilərinin sayı isə 2023-2025-ci illər ərzində 22 dəfə artıb. Başqa sözlə, bazarda istifadəçilər tərəfindən formalaşan aydın bir "gizli tələb" mövcuddur, lakin bu tələbi tam qarşılayacaq "sərfəli təkliflərin" həcmi hələ də kifayət qədər deyil.

Mütəxəssis hesab edir ki, median sürətin 200 Mbit/s-ə çatması üçün provayderlər qurduqları GPON infrastrukturunun imkanlarından daha səmərəli istifadə etməli, 100 Mbit/s istifadəçilərinin ən azı 50 faizinin 250 Mbit/s və daha yüksək sürətli, daha sərfəli paketlərə keçidini təşviq etməlidirlər.

**Məlahət**

# Böyük Britaniya qadağan etdi

## Körpələr su ilə nə vaxt tanış olmalıdır?



*(əvvəli 8-ci səhifədə)*

Özbüğütü su üzərində istifadə edilən ən etibarlı köməkçi vasitə kimi "makarna" adlandırılan klassik üzmə borularını göstərib. Bununla belə, o vurğulayıb ki, hansı vasitədən istifadə olunmasından asılı olmayaraq, uşaq daim valideynin nəzarətində olmalıdır. Həmçinin qeyd olunur ki, bazarda satılan bəzi məhsullar oyuncaq deyil, "şəxsi qoruyucu vasitə" kateqoriyasına daxildir və onların istehsalı üçün xüsusi təhlükəsizlik standartları mövcuddur.

Türkiyə Oyuncaqçılar Dərnəyinin sədri Raşit Akar bildirib ki, ölkədə oyuncaq və uşaq məhsulları üzrə idxal nəzarəti dünyanın ən sərt sistemlərindən biridir. Onun sözlərinə görə, məhsulların üzərində istehsalçı və idxalçı məlumatları, eləcə də CE uyğunluq nişanı mütləq olmalıdır.

Ekspertlər valideynlərə naməlum mənbələrdən və nəzarətsiz internet platformalarından alınan məhsullardan uzaq durmağı tövsiyə edir, xüsusilə boyun halqaları və oyuncaq formasında hazırlanmış üzmə vasitələrinin yaratdığı risklərə diqqət çəkirlər.

Mütəxəssislərin yekun qənaəti budur ki, uşaqların su təhlükəsizliyində ən vacib amil heç bir avadanlıq deyil, daimi valideyn və ya təlimçi nəzarətidir.

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun I müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, Nihat Müzəffər, Banuçiçək Kalbalıyeva, Aybəniz Səfərova, Elmar İbrahimli

Texniki heyət:
Xaqani Kosayev, Pərvin İbrahimov
İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50,
Elan, reklam - mob: (050) 313-82-83,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 855



## Mütəxəssislərdən xəbərdarlıq

### Güclü istilər gənclərdə də infarkt riskini artırır

**Avropanı bürüyən isti hava dalğasının yaxın günlərdə Türkiyədə də təsirini gücləndirəcəyi gözlənilir. Mütəxəssislər xüsusilə gəncləri həddindən artıq isti havalarda spirtli içki qəbulu, susuz qalmaq və ağır fiziki fəaliyyətlə məşğul olmaqdan çəkinməyə çağırırlar.**

Türkiyəli professor Şövkət Özkaya bildirib ki, yüksək temperatur fonunda orqanizmin yükü artır, ürək daha sürətlə işləyir və bədənin istilik balansını qoruması çətinləşir. Onun sözlərinə görə, bu şəraitdə spirtli içkilərin yaratdığı əlavə maye itkisi infarkt, huşun itirilməsi və digər ciddi sağlamlıq problemləri riskini yüksəldə bilər.

Professor xəbərdarlıq edib ki, bu yay təkcə yaşlılar deyil, gənclər də risk qrupuna daxildir. Xüsusilə günəş altında uzun müddət qalmaq, intensiv idmanla məşğul olmaq və kifayət qədər su qəbul etməmək təhlükəli nəticələrə səbəb ola bilər.

Mütəxəssislər vətəndaşlara günün ən isti saatlarında açıq havada olmamağı, bol su içməyi, fiziki yüklənməni azaltmağı və mümkün qədər kölgəlik yerlərdə qalmağı tövsiyə edirlər. Onların fikrincə, istilik dalğaları qısa müddətdə belə həyati təhlükə yarada bilər.

## 6 baş nazir dəyişib

### O hələ də vəzifəsinin başındadır

**Böyük Britaniyada baş nazirlər dəyişsə də, Dauninq-strit 10 nömrəli iqamətgahın ən məşhur sakini - ”Baş siçan ovçusu” Larri vəzifəsini davam etdirir.**



“Şərq” xəbər verir ki, 2011-ci ildə ozamankı Baş nazir Devid Kemeron tərəfindən heyvan sığınacağından götürülən boz-ağ pişik artıq 15 ildir Baş nazirin iqamətgahında yaşayır. Bu müddət ərzində Larri Devid Kemeron, Tereza Mey, Boris Conson, Liz Trass, Rişi Sunak və Kir Starmer olmaqla altı baş nazirin fəaliyyətinə şahidlik edib. İndi isə o, 7-ci baş naziri qarşılamağa hazırlaşır.

Rəsmi olaraq ”Baş siçan ovçusu” titulunu daşıyan Larrinin vəzifələri arasında qonaqları qarşılamaq, təhlükəsizlik vəziyyətini müşahidə etmək və iqamətgahın ”ab-havasını qorumaq” da yer alır.

Dünya liderlərinin rəsmi səfərləri zamanı tez-tez kameraların obyektivinə tuş gələn Larri zamanla Britaniya siyasətinin ən tanınmış simalarından birinə çevrilib. Hazırda 18-19 yaşlarında olduğu bildirilən məşhur pişik yaşına baxmayaraq, Dauninq-stritdəki ”xidmətini” davam etdirir.

## Şahzadə Keyt Middlton dağa qalxdı

**2024-cü ildə xərçəng diaqnozu qoyulan və müalicədən sonra sağaldığını açıqlayan Böyük Britaniya kral ailəsinin üzvü Şahzadə Keyt Middlton xərçənglə mübarizəyə diqqət çəkmək məqsədilə keçirilən ”Milli Üç Zirvə Çağırışı” adlı yürüşə qatılıb.**



“Şərq” xəbər verir ki, bu barədə Habertürk məlumat yayıb.

44 yaşlı Middlton iyunun 28-də Şotlandiyanın ən hündür zirvəsi olan Ben Nevis dağının zirvəsinə qalxıb. O, sosial şəbəkə hesabında paylaşdığı açıqlamada bu yürüşün onun üçün fiziki sınaqla bərabər, həm də xəstəlikdən sonrakı həyata yenidən baxmaq və cəmiyyətə fayda vermək imkanı olduğunu bildirib.

Şahzadə qeyd edib ki, xərçəng insanın bədəni ilə yanaşı, düşüncə tərzinə və hisslərinə də təsir edir. Onun sözlərinə görə, müalicədən sonrakı bərpa prosesi yalnız tibbi yardım deyil, həm də mənəvi və psixoloji dəstək tələb edir.

## Diqqətli olun!

### Yenidoğulmuş körpələrin foto çəkilişi zamanı ehtiyatlı olun

**Yeni doğulan körpələrin onurğası, skelet və sinir sistemi olduqca həssas olduğundan çəkiliş zamanı baş və bel nahiyəsi mütləq dəstəklənməlidir.**



”Şərq” xəbər verir ki, Türkiyəli pediatr mütəxəssis Ufuk Ertural yenidoğulmuş körpələrin foto çəkilişi zamanı düzgün olmayan pozaların sağlamlığa zərər verə biləcəyi barədə xəbərdarlıq edib.

Körpənin məcburi şəkildə müəyyən pozalara salınması əzələ, sinir, damar və skelet sistemində problemlərə səbəb olur.

Mütəxəssis bildirib ki, xüsusilə fotoqraflar arasında məşhur olan bəzi pozalar körpənin bədən elastikliyini həddindən artıq zorladıqda təhlükə yaradır.

Ertural həmçinin çəkiliş zamanı istifadə olunan geyim və aksessuarların sıxmayan, rahat materiallardan seçilməsini tövsiyə edib. Onun sözlərinə görə, ağır papaqlar və dar bantlar körpənin baş nahiyəsinə mənfi təsir göstərə bilər.

Həkim foto çəkilişlərində güclü işıq və flaşdan istifadənin də arzuolunmaz olduğunu vurğulayaraq, körpələrin gözlərinin həssas olması səbəbindən yumşaq və təbii işıq altında çəkiliş aparılmasını məsləhət görüb.



# Böyük Britaniya qadağan etdi

### Körpələr su ilə nə vaxt tanış olmalıdır?

**Böyük Britaniyada boğulma riski səbəbindən bəzi körpə üzmə halqalarının satışının qadağan edilməsi valideynlər arasında su təhlükəsizliyi ilə bağlı müzakirələri yenidən gündəmə gətirib.**

“Şərq” xəbər verir ki, mütəxəssislərin fikrincə, körpələr doğulduqları andan etibarən su ilə tanış ola bilərlər. Lakin bu proses mütləq valideyn və ya xüsusi hazırlıq keçmiş təlimçi nəzarəti altında aparılmalıdır.

**Türkiyədə körpələr üçün üzgüçülük təlimləri üzrə mütəxəssis Erengül Özbüğütü bildirib ki, yeni doğulan uşaqlarda nəfəsi saxlama refleksi mövcuddur və buna görə də onların su ilə erkən yaşlarda tanış olması mümkündür. Bununla yanaşı, o, körpələrin boynuna taxılan üzmə halqalarının ciddi təhlükə yaratdığını vurğulayıb.**

Onun sözlərinə görə, bu cür vasitələr boyun əzələlərinin zədələnməsinə, uşağın suyun içində çevrilərək boğulma riski ilə üzləşməsinə səbəb ola bilər.

Mütəxəssis qeyd edib ki, körpələrin ilk aylarda istifadə etməli olduğu xüsusi üzmə avadanlığı yoxdur. Bu mərhələdə ən vacib amil valideyn dəstəyidir. Uşaq böyüdükcə bəzi yardımçı vasitələrdən istifadə oluna bilər, lakin onlar da təhlükəsizliyə tam təminat vermir.

*(davamı 7-ci səhifədə)*



# Stresdən qurtulmağın 10 sadə yolu

**Stress həyatın ayrılmaz hissəsidir. Kiçik çətinliklərdən böyük problemlərə qədər müxtəlif vəziyyətlər insanın psixoloji gərginlik yaşamasına səbəb olur. Şəraiti hər zaman dəyişmək mümkün olmasa da, ona münasibəti idarə etmək mümkündür.**

“Şərq” xəbər verir ki, mütəxəssislər stresi azaltmağa kömək edən bir sıra sadə üsulların olduğunu bildirirlər.

**1. Xəyal gücünüzdən istifadə edin**

Özünüzü xoşbəxt hiss etdiyiniz bir məkanda təsəvvür edin. Məsələn, dəniz sahilində oturduğunuzu, dalğaların səsini eşitdiyinizi və ilıq qumu hiss etdiyinizi düşünün. Bu üsul zehni qısa müddətdə rahatlaşdıra bilər.

**2. Meditasiya edin**

Meditasiya həm qısamüddətli rahatlıq yaradır, həm də uzunmüddətli stress idarəetməsinə kömək edir. Bir neçə dəqiqə ərzində nəfəsinizə diqqət yetirmək və ya müəyyən bir ifadəni təkrarlamaq sakitləşdirici təsir göstərir.

**3. Əzələlərinizi rahatlaşdırın**

Dərin nəfəs aldıqdan sonra bədənin müxtəlif əzələ qruplarını növbə ilə sıxıb boşaltmaq gərginliyin azalmasına kömək edir. Bu üsul bədəndəki gərginliyi daha yaxşı hiss etməyə və aradan qaldırmağa imkan verir.

**4. Nəfəsinizə fokuslanın**

Düzgün nəfəs alma texnikaları bir neçə dəqiqə ərzində həm bədəni, həm də zehni sakitləşdirir. Burnunuzdan yavaş nəfəs alıb-verərək diqqətinizi yalnız nəfəsinizə yönəldin.

**5. Sevdiyiniz bir insanı qucaqlayın**

Fiziki təmas zamanı orqanizmdə xoşbəxtlik hissi yaradan oksitosin hormonu ifraz olunur. Bu hormon stress səviyyəsinin azalmasına və rahatlama hissinin yaranmasına kömək edir.

**6. Yaradıcılıqla məşğul olun**

Rəsm çəkmək, boyamaq və ya hər hansı yaradıcılıq fəaliyyəti insanın diqqətini problemlərdən yayındıraraq rahatlama yaradır.

**7. Hobbilərinizə vaxt ayırın**

Sevdiyiniz fəaliyyətlərlə məşğul olmaq stresi azaltmağın ən təsirli yollarından biridir. Musiqi dinləmək, kitab oxumaq, oyun oynamaq və ya idmanla məşğul olmaq əhvali-ruhiyyəni yaxşılaşdırır.

**8. Minnətdarlıq hissini inkişaf etdirin**

Həyatınızdakı müsbət məqamları düşünmək və sahib olduqlarınıza görə minnətdar olmaq streslə mübarizədə faydalı olur. Bu yanaşma insanın diqqətini problemlərdən uzaqlaşdırır.

**9. Sosial dəstək alın**

Ailə üzvləri, dostlar və ya yaxın insanlarla ünsiyyət emosional yükü azaltmağa kömək edir. Lazım gəldikdə psixoloji dəstək almaq da faydalı olur.

**10. Stress yaradan amilləri azaldın**

Daim mənfi xəbərləri izləmək, elektron cihazlardan həddindən artıq istifadə, çoxlu kofein və ya alkoqol qəbulu stress səviyyəsini yüksəldir. Gündəlik vərdişlərdə kiçik dəyişikliklər etmək daha sakit və balanslı həyat tərzinə kömək edir.

*Mütəxəssislər qeyd edirlər ki, stressi tamamilə aradan qaldırmaq mümkün olmasa da, düzgün üsullarla onun təsirini əhəmiyyətli dərəcədə azaltmaq mümkündür.*

**Hazırladı: Turan**

# Əsl səbəb o deyil

### Ayaqyolunda uzun vaxt keçirən kişilər risk altındadır

**Professorun sözlərinə görə, insan istəsə bir saat ayaqyolunda qala bilər, amma...**

Son vaxtlar sosial şəbəkələrdə ayaqyolunda uzun müddət oturmağın hemoroid xəstəliyinə səbəb olduğu barədə fikirlər geniş yayılıb. Lakin mütəxəssislər bildirirlər ki, əsas risk tualetdə keçirilən vaxt deyil, defekasiya zamanı yaranan gərginlik və bağırsaq problemləridir.

**“Şərq” xəbər verir ki, kolon və rektum cərrahı, proktologiya üzrə türk mütəxəssis, professor Ediz Altınlı hemoroidin yaranmasına səbəb olan amillər və qorunma yolları barədə danışıb.**

Mütəxəssisin sözlərinə görə, ayaqyolunda 10 dəqiqədən artıq qalmaq bəzən insanın “Obstruktiv Defekasiya Sindromu” kimi bağırsaq boşalma problemlərindən əziyyət çəkdiyini göstərir. Belə hallarda insanlar uzun müddət ayaqyolunda qalır və həddindən artıq gücənirlər ki, bu da hemoroid riskini artırır.



Professor bildirib ki, hemoroid anal kanalda yerləşən və damarlarla zəngin olan xüsusi toxumalardır. Uzunmüddətli və güclü gücənmə nəticəsində bu toxumaları yerində saxlayan əzələ və bağlar zəifləyir, nəticədə hemoroid düyünləri aşağı sürüşərək xəstəliyin yaranmasına səbəb olur.

Ediz Altınlı qeyd edib ki, sosial şəbəkələrin yayılması ilə ayaqyolunda daha çox vaxt keçirilməsi arasında birbaşa əlaqə yoxdur. Onun sözlərinə görə, əvvəllər insanlar tualetdə qəzet, jurnal və ya kitab oxuyurdular, indi isə həmin vasitələrin yerini telefon və sosial media tutub.

Mütəxəssis həmçinin hemoroidin yalnız kişilərdə daha çox rast gəlindiyi fikrinin doğru olmadığını vurğulayıb. O bildirib ki, qadınlar da ən azı kişilər qədər risk altındadırlar. Xüsusilə hamiləlik dövründə böyüyən uşaqlığın çanaq nahiyəsində yaratdığı təzyiq səbəbindən hemoroid yaranma ehtimalı artır. İri döl və ya çoxdöllü hamiləliklərdə bu risk daha yüksək olur.

Professorun sözlərinə görə, insan istəsə bir saat ayaqyolunda qala bilər, amma güclü gücənmə yoxdursa, bu, təkbaşına hemoroid yaratmır. Əsas amil gücənmənin şiddəti və təkrarlanmasıdır.

Mütəxəssis hemoroid riskini artıran digər faktorlar arasında piylənmə, ağır yük qaldırmaq, prostat problemləri səbəbindən çətin sidik ifrazı, hamiləlik və genetik meyilliliyi də qeyd edib.

Hemoroiddən qorunmaq üçün isə uzun müddət fasiləsiz oturmamaq, mütəmadi hərəkət etmək, bol su içmək, liflə zəngin qidalanmaq, tam taxıllı məhsullara üstünlük vermək, qırmızı ətin istehlakını azaltmaq və kefir, yoqurt kimi probiotik qidalardan istifadə etmək tövsiyə olunur. Bundan əlavə, ofis işçiləri, sürücülər, pilotlar, proqramçılar və günün böyük hissəsini oturaq vəziyyətdə keçirən şəxslərin daha diqqətli olmaları məsləhət görülür.